**Bu gün regionlarımızın günbəgün inkişaf etməsi ölkəmizdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğunu təsdiq edən ən mühüm amildir. Eyni zamanda, onu da vurğulamaq lazımdır ki, regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə təkan verir.**



# Prezidentin regionlara səfərləri xalqa olan qayğıdan irəli gəlir

Ən mühüm məsələ isə, Prezident İlham Əliyevin, mütəmadi olaraq, bölgələrə səfər etməsi və səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir. Həmçinin, xüsusi olaraq, vurğulamaq lazımdır ki, son illər ərzində, ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi vədi yerinə yetirən və Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan ölkə başçısı İlham Əliyevin, müntəzəm olaraq, regionlara səfərləri zamanı insanlarla həmişə təmasda olması, sıravi adamlarla, ziyalılarla, gənclərlə görüşləri Ona öz işini səmərəli qurmaqda, nöqsanları aradan qaldırmaqda, qarşıya yeni vəzifələr qoyub, həyata keçirməkdə imkanlar yaradır və hakimiyyətlə xalqın birliyini möhkəmləndirir.

Məhz bunun nəticəsidir ki, son 16 ildə həyata keçirilən məqsədyönlü islahatlar, bir sıra ümummilli proqramlar, mühüm infrastruktur layihələrin uğurla reallaşdırılması ölkəmizin sosial-iqtisadi mənzərəsini xeyli dərəcədə dəyişmiş, tarazlı inkişaf və davamlı yüksəliş üçün möhkəm əsas yaratmışdır. Təkcə, onu demək kifayətdir ki, ötən illər ərzində, Azərbaycanda həyata keçirilən uğurlu neft strategiyası və iqtisadi islahatlar nəticəsində, iqtisadiyyatımız dəfələrlə artmış, ölkənin ümumi valyuta ehtiyatları çoxalmışdır.

## Son 16 il - uğurlu yolun uğurlu nəticələri

Bu günlərdə dünyanın mötəbər "beyin mərkəzi" sayılan Davos İqtisadi Forumunda Prezident İlham Əliyev "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında moderatorun "Paneldə regionu yaxşı tanımayanlar üçün. Baş qaldırmasından daha çox narahat olduğunuz gərginliklər hansılardır" sualına cavabında deyib: "Biz özümüz Ermənistan tərəfindən işğala məruz qalmışıq və bu, daimi təhdid mənbəyidir. Ərazilərimizin, demək olar ki, 20 faizi beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə zidd olaraq, Ermənistanın işğalı altındadır... Buna görə də, düşünürəm ki, regionda sabitliklə bağlı vəziyyət bizi narahat edən əsas məsələdir və belə deyə bilərəmsə, regionda qeyri-sabitlik əsas kabusdur."

Belə bir şəraitdə, Dünya İqtisadi Forumu Azərbaycanın uğurlarının, eləcə də, problemlərini bütün dünyaya tanıdılmasında önəmli rol oynayır. Şübhəsiz, bütün bunlar ölkəmizi bu mötəbər tədbirdə uğurla təmsil edən Prezident İlham Əliyevin danılmaz xidmətləridir.

Dünya İqtisadi Forumu Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün gözəl bir platforma olmaqla yanaşı, dünyada baş verən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə imkan yaradır. "Doing Business 2009" və "Doing Business 2019" hesabatlarında Azərbaycan dünyanın lider islahatçı ölkəsi olaraq tanınıb.

2020-ci il üçün hesabatında Azərbaycanın rəqabət qabiliyyətliliyinə görə 35-ci, "Doing Business" hesabatında 25-ci yerdə qərarlaşması həyata keçirilən islahatların səmərəliliyinin bariz göstəricisidir.

Bir məqamı da, vurğulamaq lazımdır ki, dövlət başçısı İlham Əliyev ötən 16 il müddətində, sosial ədalət prinsipinin qorunması baxımından respublikanın hər bir bölgəsinin - potensial və imkanlar nəzərə alınmaqla - proporsional inkişafını vacib saymış, bu istiqamətdə sistemli və ardıcıl tədbirlər həyata keçirməyi hökumətin mühüm vəzifələrindən biri kimi müəyyənləşdirmişdir.

Beləliklə, görülmüş işlər haqqında danışanda, əlbəttə ki, biz son 16 il ərzində, yerinə yetirilmiş işlərə nəzər salmalıyıq. Bu işlər həm real həyatda, həm rəqəmlərdə, həm də dəyişən, abadlaşan şəhərlərdə özünü göstərir.

## "Məqsədimiz odur ki, insanlara yaxşı maaş verilsin"

Bir sözlə, bu gün regionlarımızın günbəgün inkişaf etməsi, ölkəmizdə həyata keçirilən uğurla davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğunu təsdiq edən ən mühüm amildir. Eyni zamanda, onu da vurğulamaq lazımdır ki, regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə təkan verir. Eyni zamanda, ən əsas amil isə dövlət başçısının, mütəmadi olaraq, bölgələrə səfər etməsi və səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılan məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir. Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan ölkə başçısı İlham Əliyevin, müntəzəm olaraq, regionlara səfərləri zamanı insanlarla həmişə təmasda olması, sıravi adamlarla, ziyalılarla, gənclərlə görüşləri Ona öz işini səmərəli qurmaqda, nöqsanları aradan qaldırmaqda, qarşıya yeni vəzifələr qoyub həyata keçirməkdə imkanlar yaradır və hakimiyyətlə xalqın birliyini möhkəmləndirir.

## Hər bir addımda vətəndaşların mənafeyi amili

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyasını hər bir azərbaycanlı öz həyatında hiss edir. Çünki dövlət başçısının müəyyənləşdirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prezident İlham Əliyevin Azərbaycanın şəhər və rayonlarına hər bir səfəri insanların qayğı və problemlərinə həssas münasibətin nümayişinə çevrilir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Ötən illər ərzində, ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən dövlətimizin başçısı İlham Əliyev üçün hər bir addımda vətəndaşların mənafeyi əsas amillərdəndir. Təbii ki, bu amil əhalinin sosial rifah halının daha da yüksəlməsi ilə müşayiət olunur.

Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində, ölkə iqtisadiyyatı sürətli inkişaf dövrünə qədəm qoydu, Azərbaycanın dövlət büdcəsi artdı, açılan yeni iş yerlərinin sayı 1 milyon 300 mini keçdi, yoxsulluq 48 faizdən 5 faizə düşdü. Dünyada ən sürətli templərlə inkişaf edən Azərbaycanın iqtisadiyyatı 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə artdı. Ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyuldu. Heç bir başqa ölkədə son on il ərzində, iqtisadiyyat bu qədər artmayıb. Özü də bu inkişafa qlobal iqtisadi böhranın tüğyan etdiyi şəraitdə nail olunub. Ölkəmiz rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında öz yerini daha da möhkəmləndirdi.

Beləliklə, sadalanan rəqəmlər, bir daha onu göstərir ki, yürüdülən siyasət dövlət başçımızın düşünülmüş, məqsədyönlü siyasətidir və bu siyasət regionlarımızın yüksək inkişafını təmin edəcək. Prezident İlham Əliyevin yürütdüyü siyasət sayəsində bu gün Azərbaycanın regionlarında yol infrastrukturu yenilənib, su, qaz və elektrik enerjisi təminatı xeyli yaxşılaşdırılıb. Bütün bunlar, təbii ki, regionların inkişafına olan diqqətin birbaşa ifadəsidir.

**RƏFİQƏ KAMALQIZI**

## Rəsmi xronika

Prezident İlham Əliyev A.H.Naxçıvanlının 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Aqiyə Həbib qızı Naxçıvanlı 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Abşeron, Xızı, Siyəzən və Şabran rayonlarında ərazi vahidlərinin, o cümlədən yeni yaşayış massivlərinin (siyahı əlavə olunur) qazlaşdırılması işlərinin davam etdirilməsi məqsədilə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Məmməd Əhməd oğlu Məmmədovun Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin sədri vəzifəsindən azad edilməsi ilə bağlı Sərəncam imzalayıb.

# Milli Məclisin 2020-ci il yaz sessiyasının iclası keçirilib



***Dünən altıncı çağırış Milli Məclisin növbəti iclası keçirilib. İclası açan sədri Sahibə Qafarova parlament seçkilərinin nəticəsi olaraq ölkəmizin altıncı çağırış Milli Məclisi uğurla formalaşıb. İclasda Mərkəzi Seçki Komissiyasının Sədri Məzahir Pənahov iştirak edib və deputatlara vəsiqələri paylanıb.***

Sonra çıxış edən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov fevralın 9-da ölkəmizdə keçirilən Milli Məclisə seçkilərdə mandat qazanan deputatları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. O, rəhbərlik etdiyi qurumun seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq vəzifəsini uğurla həyata keçirdiyini diqqətə çatdırıb. Komissiya sədri seçkilərdə beynəlxalq seçki standartlarına uyğun tələb və normaların tam olaraq yerinə yetirilməsini ölkə rəhbərliyinin siyasi iradəsinin bariz nümunəsi kimi dəyərləndirib. O, buna görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib, altıncı çağırış Milli Məclisin Azərbaycan xalqına layiqincə xidmət edəcəyinə əmin olduğunu söyləyib.

Daha sonra Məzahir Pənahov Milli Məclisin Sədri Sahibə Qafarovaya, Sədrin birinci müavini Əli Hüseynliyə, müavinlər Adil Əliyev və Fəzail İbrahimliyə, həmçinin digər deputatlara vəsiqələrini təqdim edib.

Vəsiqələrin təqdimatından sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb. İclasın gündəliyinə 18 məsələ daxil edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanunlarında edilən dəyişikliklər barədə məlumat verərək bildirib ki, bu sənədlərdəki dəyişikliklər ötən ilin iyulunda birinci oxunuşda qəbul olunub. Sənədlərdəki birinci dəyişiklik "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya qanununun müvafiq maddələrinin "Normativ hüquqi aktlar haqqında" qanuna, ikinci dəyişiklik isə "Normativ hüquqi aktlar haqqında" qanunun Milli Məclisin Daxili Nizamnaməsinə uyğunlaşdırılması xarakteri daşıyır. Sənədlər səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Gündəlikdəki digər məsələ - "Əmanətlərin tam sığortalanması haqqında" qanunda dəyişiklik edilməsi barədə məlumatı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili verib. Bildirib ki, qanun 2016-cı il martın 4-dən qüvvəyə minib və bu il martın 4-də onun qüvvədəolma müddəti başa çatıb. Qanun layihəsində əmanətlərin tam sığortalanması müddətinin daha 9 ay, yəni, bu il dekabrın 4-dək uzadılması nəzərdə tutulur. Müzakirələrdən sonra sənəd səsverməyə çıxarılaraq qəbul edilib.

Sonra iclasda "Milli Məclisin 2020-ci il yaz sessiyasının qanunvericilik işləri planı haqqında" sənəd müzakirəyə çıxarılıb. Deputatlar Musa Qasımlı, Zahid Oruc, Qüdrət Həsənquliyev, Tahir Kərimli, Fəzail Ağamalı, Elman Məmmədov, Nəsib Məhəməliyev, Erkin Qədirli, Qənirə Paşayeva, Sahib Alıyev və Məlahət İbrahimqızı müxtəlif təkliflərlə çıxış ediblər.

Çıxışlardan sonra Milli Məclisin 2020-ci il yaz sessiyasının Qanunvericilik İşləri Planı təsdiqlənib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəlikdə qalan digər məsələlər təşkilati xarakterlidir. Milli Məclisin komitələrinin tərkibinin formalaşdırılması ilə bağlı məsələlərin müzakirəsindən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq təsdiq edilib. Bununla da Milli Məclisin martın 13-də keçirilən iclası öz işini başa çatdırıb.

**Rəfiqə**



# Operativ Qərargah: "Bu gündən ölkə ərazisində sosial izolyasiya tədbirləri tətbiq edilir"

***Koronavirus infeksiyası (COVİD-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam edir. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması dövlətləri daha da ciddi tədbirlər görməyə sövq edir.***

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu nəzərə alaraq və virusun qarşısının alınması istiqamətində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə və tələblərindən irəli gələrək ölkə ərazisində bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranmışdır. Bununla əlaqədar bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması qərara alınmışdır. Həmçinin, dövlət və özəl sektora aid qurumlardan, vətəndaşlardan xüsusi qaydalara ciddi riayət etmələri tələb olunur.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan Trend-ə daxil olan məlumatda qərargah 14 mart 2020-ci il saat 00:00-dan etibarən ölkə ərazisində tətbiq olunacaq bəzi sosial izolyasiya tədbirlərini diqqətə çatdırır:

* ölkə üzrə bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirləri təxirə salınır, artıq təyin olunmuş tədbirlərin tarixi dəyişdirilir;

* ölkə üzrə kinoteatrların, muzey və teatrların, əyləncə mərkəzlərinin, idman zallarının fəaliyyəti dayandırılır;

* ölkə ərazisində bütün toy məclislərinin keçirilməsi qadağan edilir; (14 və 15 mart 2020-ci il tarixlərinə əvvəlcədən təyin olunan toy mərasimləri istisna olmaqla)

* dəfn mərasimləri istisna olmaqla, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi qadağan olunur;

* restoran və kafelərdə iş rejimi saat 21:00-dək müəyyən edilir və müvafiq dövlət strukturları tərəfindən bu məkanlar üçün açıqlanacaq qaydalara riayət olunması mütləqdir;

* restoran və kafelərdə kütləvi şənliklərin, məclislərin təşkili qadağan edilir;

* saat 21:00-dan sonra fəaliyyət göstərən klublar və barların fəaliyyəti dayandırılır;

* ölkə üzrə fəaliyyət göstərən alış-veriş mərkəzlərinin fəaliyyətinin müvafiq dövlət strukturları tərəfindən açıqlanacaq qaydalara riayət olunaraq həyata keçirilməsi mütləqdir;

* aptek, ərzaq mağazaları, market və supermarketlərin iş rejimində dəyişiklik olmayacaqdır;

* ictimai nəqliyyatın fəaliyyəti müvafiq dövlət strukturları tərəfindən açıqlanacaq qaydalara uyğun həyata keçiriləcəkdir;

* tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarəti qadağan edilir;

* dövlət strukturlarında çalışan bütün şəxslərin və səhiyyə işçilərinin ölkədən kənara səfərləri Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın icazəsi əsasında həyata keçirilə bilər;

* dövlət və özəl sektorda çalışan şəxslərin ən vacib məqamlar istisna olmaqla ezamiyyə səfərlərinə məhdudiyyət tətbiq edilməlidir;

* özəl tibb müəssisələri Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi ilə (TƏBİB) koordinasiya şəraitində çalışmalı, yarana biləcək hər-hansı hallar üçün yüksək hazırlıq səviyyəsi təmin edilməlidir;

* qeyd olunan müddətdə dövlət strukturlarının, özəl qurumların, bank və iaşə obyektlərinin və digər qurumların fəaliyyəti, vətəndaş müraciətlərinə baxılması, vətəndaşların qəbulu, daxili görüş və iclasların təşkili üçün xüsusi qaydalar işlənib hazırlanmalıdır;

Koronavirus diaqnozu ilə xüsusi rejimli xəstəxanalarda müalicə alan və karantin qaydalarını pozan şəxslər barəsində cəza tədbirləri tətbiq olunacaqdır.

Eyni zamanda ictimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və qəsdən bu qəbildən olan informasiyaların yayılmasını həyata keçirən kütləvi informasiya vasitələri, o cümlədən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlər görüləcəkdir.

Vətəndaşlarımızdan və kütləvi informasiya vasitələrindən bütün dünyada yaranmış hazırkı vəziyyətdə maksimum məsuliyyətli olmaq və dövlət tərəfindən həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərmələri tələb olunur.

Belə ki, hazırda koronavirus zəminində yaranan fövqəladə şəraitdə yalnız dövlət tərəfindən keçirilən tədbirlər deyil, vətəndaşlarımızın, bütün cəmiyyətin sosial məsuliyyətdən irəli gələn addımları, görülən işlərə dəstəyi vacibdir. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarları qeyd-şərtsiz icra olunmalıdır.

# Türkiyə parlamenti koronavirusa görə bağlanıb

Türkiyə parlamenti koronavirus təhlükəsi ilə əlaqədar dezinfeksiya məqsədilə bağlanıb. Trend-in məlumatına görə, bu barədə parlamentin elanında deyilir. Parlamentin bütün əməkdaşları evə buraxılıb. Qeyd edək ki, səhiyyə nazirti Fəxrəddin Qocanın sözlərinə görə, ölkədə ikinci



koronavirusa yoluxma faktı qeyd alınıb.

# “Əsl siyasət konkret real iş görməkdir”

## *Prezident İlham Əliyev: “Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda ən ciddi formada aparılır və bunun təzahürləri göz qabağındadır”*



Məhz Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə, son 16 ildə özünü dəfələrlə təsdiqləyib. Son 16 il ərzində, Azərbaycanda həyat günbəgün dəyişir. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam hər il, görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha bağlılıq daha da artır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: “Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.”

16 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Bu gün Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir. Bax, budur uğurlu siyasət!

### “Əsl siyasət konkret real iş görməkdir”

Bəli, bu, həqiqətən də, belədir. “Əsl siyasət konkret real iş görməkdən ibarətdir” deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərini sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıq yaranır.

Bəli, bu, Azərbaycan Prezidenti İlham Əliyev Cənablarının əsl siyasətidir. Dövlət başçısı növbəti dəfə nümunə ola biləcək addım ataraq, bir daha gənclərə öz tövsiyəsini verdi: böyüyə yer vermək lazımdır. Bu fakt, bir daha göstərir ki, xalqımıza xas mənəvi keyfiyyətlərin qorunması hər kəs üçün vacib missiya olmalıdır. Prezident İlham Əliyevin bu dəyəri gündəmə gətirməsi və daim diqqətdə saxlaması özündə bir çox amilləri ehtiva edir: ənənəvi dəyərlərə sadiqlik, böyüyə hörmət və sadəlik.

Ölkə başçısı bütün tədbirlərdə, keçirdiyi görüşlərdə böyüklərə, ağbirçəklərə bəslədiyi hörmətlə daim məmurlara nümunə göstərib. Prezidentin istər şəhid ailələri ilə görüşündə, istərsə də bölgələrə səfəri zamanı yaşlı insanlarla səmimi söhbətləri, onları qayğılandıran məsələlərlə bağlı həssas yanaşması deyilənlərin təsdiqidir.

Prezident İlham Əliyev İsmayıllı və Neftçala rayonuna yeni təyin etdiyi icra başçılarını qəbul edərkən, onlara fəaliyyət planı verdi. Bu aktoru da dönə-dönə vurğulamaq lazımdır ki, dövlət başçısı hər bir rayonun sosial-iqtisadi coğrafiyasını yeni başçılara təqdim etməklə, əslində, onlara yol xəritəsi göstərir. Növbəti görüşdə də, bu, bir daha sərgiləndi. Daha dəqiq desək, yeni rayon başçıları vəzifələrinin konkret nələrdən ibarət olduğu barədə aydın mesajlar aldılar.

### “Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda ən ciddi formada aparılır və bunun təzahürləri göz qabağındadır”

Azərbaycan Prezidenti İlham Əliyev bu həqiqəti hələ də anlamayan rüşvətxorların olduğunu da deyib: “Əfsuslar olsun ki, hələ də bunu dərk etməyən insanlar var. Neftçala rayonunda aparılmış xüsusi əməliyyat onu bir daha göstərdi. Xalqın gözü önündə bu biabırçı mənzərə bir daha göstərdi ki, əfsuslar olsun, bizim bəzi yüksək ranqlı məmurlar, nəinki xalqın və dövlətin etimadını doğrultmurlar, onların hərəkətləri ikrah hissi doğurur. Bütün bu sübutlar göz qabağındadır, nümayiş etdirilən videogörüntülər, sadəcə olaraq, bəzi məqamları işıqlandırır. Ancaq Neftçala rayonunda rüşvətxorluq və korrupsiya sistem xarakter daşıyırdı, sistemli əsasda həll olunurdu və demək olar ki, rüşvətxorluq və korrupsiya bütün qurumları sarsıtmışdı”.

Dövlət başçısı onu da vurğulayıb ki, belə rüşvətxorlar, belə tamahkar insanlar ən ağır cəzaya məhkum olmalıdırlar: “Təsəvvür edin, rayonun ən zəngin insanlarından biri Mərkəzi Rayon Xəstəxanasının baş həkimidir. Onun varidatı haqqında indi hüquq-mühafizə orqanları məlumat əldə ediblər. Bu adam nəyin hesabına varlanıb? Bu, biznesmendir? Yox. Bu, ixtiraçıdır? Yox. Buna böyük miras qalıb? Yox. Nəyin hesabına? Xəstələrin boğazından kəsilən pullar hesabına. Yazıq xəstələr məcbur olub bu tamahkar insanlara pul veriblər ki, öz sağlamlıqlarını təmin etsinlər. Ona görə, bu yolla gedən hər bir adam bilməlidir ki, bunun axırı olacaq”.

Prezident İlham Əliyev Neftçalanın keçmiş icra başçısının biabırçı hərəkətlərinin xalqda nifrət hissi oyatdığını da deyib: “Kabinetdə müxtəlif adamlardan rüşvətin alınması biabırçı mənzərədir. Bir də ki, o adamın iş otağındakı hərəkətləri, onun əynindəki geyim, cinsdə, ev paltarında adam iş otağında ola bilər? Rəhbər iş otağında bu geyimdə hansı nümunə göstərir bütün məmurlara? Ona görə bu biabırçı kadrlar, əlbəttə, onu göstərir ki, bu insanın və buna oxşar insanların mənəvi deqradasiyası nə dərəcədədir. İndi operativ məlumat toplanılıb və toplanılır. Əlbəttə ki, mən istintaqa qarışmaq istəmirəm, istintaq hər şeyi özü göstərəcək. Son sözü məhkəmə deyəcək. Ancaq artıq aşkar olunan faktlar onu göstərir ki, Mərkəzi Rayon Xəstəxanasında bütün şöbələr baş həkimə aylıq haqq ödəyir. Məktəblərdə rüşvətxorluq kütləvi xarakter alır. Məktəb direktorlarından haqq tələb olunur, bələdiyyələrdən rüşvət tələb olunur, ictimai əsaslarla ödənişli iş yerlərinə insanlar cəlb edilmir, onların ödəniş kartları götürülür və icra başçısı tərəfindən o pullar çəkilir. Eyni zamanda, dövlətdən maaş alan və ödənişli ictimai yerlərdə işləməli olan həmin vətəndaşlar icra başçısına aid bir çox kommersiya obyektlərində və təsərrüfatlarda qul kimi işlədilir. Yəni bir daha demək istəyirəm ki, bu, mənəvi deqradasiyanın pik həddidir və bu, hər kəsə dərs olmalıdır.

### “Bəzi hallarda bəzi rayonlarda vəsait qoymaq istəyən investora süni əngəllər yaradılır”

Dövlət başçısı, həmçinin, yeni təyin olunan icra hakimiyyətləri başçılarına fəaliyyət planı da verib: “Sizin işiniz, əsasən, rayonda mövcud olan potensialı səfərbər edib, həm iqtisadi artımı təmin etmək, iş yerlərinin yaradılması ilə bağlı əməli addımlar atmaq və rəhbərlik edəcəyiniz rayonlara sərmayənin gətirilməsinə nail olmaqdır. Həm xarici investorları, həm də yerli investorları cəlb etmək üçün hər bir rayonun başçısı fəal işləməlidir. Bu tapşırıqları mən əvvəllər də vermişəm. Bəzi rayonlarda bu sahədə yaxşı nəticələr var, bəzi rayonlarda investisiya qoyuluşu zəifdir. Bunun obyektiv səbəbləri də ola bilər”.

Dövlət başçısı bildirib ki, rayonların potensialı eyni deyil: “Buna baxmayaraq, hesab edirəm ki, Azərbaycanın müasir infrastruktur potensialını nəzərə alaraq, hər bir rayon investorlar üçün cəlbedici ola bilər. Sadəcə olaraq, yerli icra orqanlarının rəhbərləri oturub bu investisiyaları gözləməməlidirlər. Özləri fəal olmalıdırlar, özləri investorları tapmalıdırlar, onları inandırmalıdırlar və cəlb etməlidirlər. Bəzi hallarda bəzi rayonlarda investor vəsait qoymaq istəyir, amma əfsuslar olsun ki, onun qarşısında süni əngəllər törədilir. Yaxud da ki, yerli icra orqanları ona qarşı əsassız və qanunsuz tələblər irəli sürürlər. Ona görə bu hallara qarşı çox ciddi mübarizə aparılmalıdır. Rayonlarda həm ictimai-siyasi ab-hava sağlam olmalıdır, ictimai münasibətlər sağlam zəmində qurulmalıdır və həm də xalqı narahat edən problemlər həll edilməlidir. O problemləri ki, müəyyən səbəblərə görə siz özünüz həll edə bilmirsiniz, gərək mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, müvafiq nazirliklərə təkliflər verəsiniz və fəal olasınız”.

Bir sözlə, bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

**RƏFİQƏ KAMALQIZI**

# “Azərbaycanda qadınlara nəinki məhdudiyyət qoyulmur, əksinə daha çox güzəştlər edilir”



*“Hazırda feminizmlə bağlı “Resurs” Analitik Mərkəzi tərəfindən araşdırılma aparılsa da, sonradan bu anlayışın Azərbaycanda təhrif olunaraq mahiyyətinin dəyişdiyinin şahidi olduq. Ümumiyyətlə, ölkəmizdə feminizm və yaxud feminist hərəkatı üçün mühit yoxdur”. Bu fikirləri SİA-ya açıqlamasında “Resurs” Analitik Mərkəzin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.*

O bildirib ki, feminizmin ilk forması XIX əsrin əvvəllərində hərəkat kimi başlayıb, məzmun etibarilə cinslərin hüquq bərabərliyinə nail olmaq məqsədi daşıyıb. Mərkəz rəhbəri söyləyib ki, XX əsrin ortalarından sonra Qərbi Avropa və Şimali Amerikada fəallaşmağa başlayan feminizm hərəkatı bugünkü formasına qədər inkişaf edib.

Azərbaycanda feminizmin və gender bərabərliyinin vəziyyəti ilə bağlı fikirlərini açıqlayan R.Quliyev qeyd edib ki, XX əsrin əvvəllərində Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətində vətəndaşların səsvermə və digər hüquqlarında cinsi ayrı-seçkilik nəzərdə tutulmayıb: “Sovetlər dönəmində də ölkəmizdə qadın-kişi ayrı-seçkiliyi olmayıb. Müasir Azərbaycan Respublikasında isə konstitusiya və qanunlarda hüquqi, mənəvi, psixoloji, sosial-iqtisadi sferalarda heç bir cinsi ayrı-seçkilikdən söhbət getmir və gedə də bilməz”.

Ekspert vurğulayıb ki, Azərbaycanda qadınlara istər uşaq bağçası, ibtidai-orta məktəb, istər ali məktəb və ya peşə təhsili almaq, hər hansı peşə seçmək və ya idman növü ilə məşğul olmaqla bağlı nə hüquqi, nə də cəmiyyətdə sosial-psixoloji baxımdan mənfi mənada təsir yoxdur: “Bütün qanunlarda Azərbaycan vətəndaşının hüquqları bərabər şəkildə təmin olunur. Bu baxımdan heç bir yerdə qadınlara, eləcə də kişilərə cinsəl məhdudiyyət qoyulmur. Əksinə 8 mart qadınlar bayramı günü kimi qeyd edilir. Ancaq kişilər günü yoxdur. Qadınlar məcburi hərbi xidmətdən azaddırlar, kişilərin hərbi xidmət məsələsi isə qanunla tənzimlənir və məcburidir. Bununla yanaşı, övlad dünyaya gətirən qadınlara sosial məzuniyyət verilir. Xanımlar bu məzuniyyətdən hətta üç il müddətinə istifadə edə bilərlər. Lakin övladı dünyaya gələn kişinin bu ixtiyarı yoxdur”.

R.Quliyev qeyd edib ki, ailələrdə ayrılma baş verən zaman uşağını saxlamaq imkanında olan qadınlar kişilərdən daha çox üstünlüyə malikdirlər: “Ölkəmizdə elmi, ictimai-siyasi və dövlət işində çalışan qadınlara nəinki məhdudiyyət qoyulmur, əksinə mənəvi, əxlaqi dəyərlər baxımından onlara daha çox güzəştlər edilir”.

Mərkəz rəhbəri vurğulayıb ki, ötən günlərdə feminizmdən xəbəri olmayan, qadın azadlığını öz təfəkkürləri ilə başa düşən insanlar Suriyada hüquqi tapdalanan müsəlman uşaqların və ana-bacıların yaşamaq haqlarına diqqət çəkmək üçün dünyaya səslənsəydilər onların şüarları daha keyfiyyətli və xarakterik olardı: “Onlar heç özləri feminizmin nə olduğunu bilmirlər”.

***Nailə Məhərrəmova***

# ABŞ universitetində Azərbaycanın tolerantlıq ənənələri müzakirə olunub



ABŞ-ın nüfuzlu ali təhsil müəssisələrindən biri olan və Yuta ştatında yerləşən Brigham Young Universitetində (BYU) Azərbaycanın multikulturalizm və dinlərarası tolerantlıq ənənələrinə dair müzakirələr keçirilib. Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və ABŞ-ın Stirling Fondunun birgə təşkilatçılığı ilə Azərbaycanın müxtəlif dini icmaları və dövlət qurumlarının təmsilçilərindən ibarət nümayəndə heyətinin Yuta ştatında səfəri çərçivəsində Universitetin nüfuzlu Kennedi Mərkəzində keçirilən tədbirdə bu ali təhsil ocağının müəllim və tələbə heyəti iştirak edib.

Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan AZƏRTAC-a bildiriblər ki, tədbirdən əvvəl Azərbaycanın multikulturalizm ənənələrindən bəhs edən film nümayiş olunub.

Brigham Young Universitetinin Hüquq fakültəsinin Hüquq və Dini Tədqiqatlar üzrə Beynəlxalq Mərkəzinin direktoru professor Kol Durham (Cole Durham) tədbiri açaraq bu önəmli tədbirə ev sahibliyi etmələrindən məmnun olduqlarını bildirib və Azərbaycan nümayəndə heyətini təqdim edib.

Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev ölkəmizin nümayəndə heyətinin səfəri haqqında danışıb. Baş konsul nümayəndə heyətinin səfərinin əsas məqsədinin Azərbaycanın multikulturalizm və dinlərarası harmoniya üzrə nadir təcrübəsinin ölkəmizin müsəlman, yəhudi və xristian din xadimləri, eləcə də dövlət qurumlarının təmsilçiləri vasitəsilə ştat rəsmiləri və ictimaiyyətinə çatdırmaq olduğunu vurğulayıb.

Sonra müzakirələr keçirilib. Müzakirələrdə çıxış edən BBMM-in icraçı direktoru Rəvan Həsənov, DQİDK sədrinin müavini Gündüz İsmayılov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski və Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Mefodi Əfəndiyev Azərbaycanda mövcud olan multikulturalizm, qarşılıqlı anlaşma və dinlərarası tolerantlıq mühitindən ətraflı danışıb, bu ənənələrin ölkəmizdə artıq dövlət siyasəti səviyyəsinə yüksəldildiyini vurğulayıblar. Natiqlər qədim dövrlərdən bəri Azərbaycanda bütün xalqlar və dinlər arasında mehriban qardaşlıq əlaqələrinin hökm sürdüyünü qeyd ediblər. Daha sonra nümayəndə heyətinin üzvləri tələbələrin çoxsaylı suallarını cavablandırıblar. Tədbir qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.

## Siyavuş Novruzov: “Müəyyən dairələr Azərbaycanda süni ajiotaj yaratmağa çalışır”



“Bu gün müəyyən dairələr Azərbaycanda süni ajiotaj yaratmağa çalışır. Daha çox bu məsələ xaricdən qaynaqlanır. Onlar neftin qiymətinin aşağı düşməsindən öz məqsədləri üçün istifadə etməyə cəhd edirlər”. Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, neftin qiymətinin dəyişməsi ilə əlaqədar dövlət lazımi tədbirlər görür. Onun sözlərinə görə, amma xaricdə oturanlar bu amildən ictimai rəyi çaşdırmaq üçün istifadə edir.

“Onlar cəmiyyəti başqa istiqamətə yönəltməyə çalışırlar. İnsanlar narahat olmamalı, dövlət tərəfindən lazımi tədbirlər görüləcək. Hər zaman ən təhlükəli məqamlarda dövlət öz xalqının yanında olub. Cəmiyyətin nəzərinə çatdırmaq lazımdır ki, təşvişə ehtiyac yoxdur. Bir neçə adamın yanlış fikirlərinə uymamalıdırlar”-deyə, YAP İcra katibinin müavini vurğulayıb.

## YAP Siyasi Şurasının iclası keçirilib

Dünən Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının iclası keçirilib. Trend-in məlumatına görə, iclasda cari məsələlər müzakirə edilib, YAP-ın deputat korpusuna Azərbaycan Prezidenti İlham Əliyevin VI çağırış Milli Məclisin ilk iclasında çıxışından irəli gələn tapşırıq və tövsiyələr verilib. İclasda bildirilib ki, hər bir deputat öz vəzifəsini layiqincə yerinə yetirməli, xalqın onlara etimadını doğrultmalıdır.

## DSX: Ermənistan ordusu Qazaxda yaşayış evlərini atəşə tutub, düşmən cavab atəşi ilə susdurulub

Azərbaycan Respublikasının Ermənistan ilə dövlət sərhədində düşmən tərəfinin təxribatları davam edir. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, martın 13-də saat 11:45 radələrindən başlamaqla Qazax rayonunun Abbasbəyli kəndində yaşayış evləri və mülki nəqliyyat vasitələri Ermənistanın İcevan rayonunun Berkaber, Lalaqux və Sevkar kəndləri yaxınlığında yerləşən silahlı qüvvələrinin bölmələri tərəfindən iriçaplı silahlardan intensiv atəşə tutulub. Düşmən təxribatının qarşısı alınıb, yaşayış məntəqəmizə qarşı atəşin açıldığı Ermənistan silahlı qüvvələrinin döyüş mövqeləri cavab atəşi ilə susdurulub. Hazırda əməliyyat şəraiti sərhəd döyüş məntəqələrimizin nəzarəti altındadır.

## ISESCO: AZƏRTAC koronavirusla mübarizəyə dair təşkilatın məlumatını operativ yayan beş agentlikdən biridir

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) koronavirusla mübarizə üzrə təşkilatın fəaliyyətini operativ işıqlandıran beş informasiya agentliyindən birinin də AZƏRTAC olduğunu bəyan edib.

ISESCO-nun Dünya Səhiyyə Təşkilatının (DST) baş direktoru Tedros Adhanom Hebreyesusun tövsiyələrini dəstəkləyən bəyanatında deyilir ki, təşkilatın COVID-19 virusuna qarşı vaksin üçün pul mükafatı təsis etməsi xəbərini Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), Çinin Sinxua, Türkiyənin Anadolu, Səudiyyə Ərəbistanının SPA, Birləşmiş Ərəb Əmirliklərinin WAM agentlikləri operativ şəkildə və bir neçə dildə yayıblar. Təşkilatın bəyanatında DST-nin məktəblərdə və universitetlərdə tədris prosesinin dayandırılması təşəbbüsü dəstəklənir. Qeyd olunur ki, koronavirusa

## İrandan və İtaliyadan qayıdan dörd Azərbaycan vətəndaşında koronavirus aşkarlanıb




İran və İtaliyadan qayıdan dörd nəfər Azərbaycan vətəndaşında koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin yanında operativ qərargahdan məlumat verilib. Bildirilib ki, həmin şəxslər xüsusi rejimli xəstəxanalara yerləşdirilib. Hazırda onların səhhəti normaldır, müalicələri ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

Bundan əvvəl xüsusi rejimli xəstəxanalara yerləşdirilmiş 1938-ci il təvəllüdlü Azərbaycan Respublikası vətəndaşının səhhəti sabit ağır olaraq qalır. Xəstə ciddi nəzarət altında saxlanılır və müalicəsi ilə bağlı zəruri tədbirlər görülür. Koronavirus infeksiyası aşkarlanmış digər şəxslərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir, onların səhhəti ciddi nəzarət altında saxlanılır.

# Avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir

*Dövlət başçısının Sərəncamı ilə Şəmkir rayonunun Şəmkir-Zəyəm, Düyərli-Zəyəm və Cırdaxan-Tatarlı avtomobil yolunun tikintisinə 7,5 milyon (yeddi milyon beş yüz min) manat ayrılıb*



***Bu gün Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Ölkəmizdə bölgələrin sosial-iqtisadi inkişafı başlıca prioritetlərdən biri kimi müəyyənləşdirilib. Qarşıya qoyulan hədəflərə uyğun olaraq, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi davamlı xarakter daşıyır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir. Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətinin məntiqi nəticəsidir.***







Respublikamızın bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirmişdir. Bu gün inkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı mərhələli dövlət proqramlarının qəbulu və icra olunması hər bir bölgənin davamlı inkişafını təmin edib. Təbii ki, bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin, əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir: "Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir".

Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan düzgün istifadə mexanizmlərini də üzə çıxarır. Bu gün, həmçinin, güzəştli kreditlər hesabına maliyyələşdirilən, müasir texnologiyaların tətbiqinə əsaslanan layihələrdən olan və ölkə əhalisinin keyfiyyətli ərzaq məhsullarına tələbatının ödənilməsinə xidmət edən müasir aqroparkların yaradılması xüsusi əhəmiyyətə malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq, artıq ölkəmizdə aqroparklar yaradılıb. Aqroparkların yaradılması ölkənin ixrac coğrafiyasının genişləndirilməsində əhəmiyyətli rol oynayır.

Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən, son illərdə kənd yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub. Azərbaycanın regionlarında, paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Dövlət başçısı bu günlərdə Şəmkir rayonunun Şəmkir-Zəyəm-Düyərli (18 km)-Zəyəm Cırdaxan-Tatarlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, iyirmi iki min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Şəmkir-Zəyəm-Düyərli (18 km) - Zəyəm-Cırdaxan-Tatarlı avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 7,5 milyon (yeddi milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Bütün bunlar bölgələrdə yaşayan əhalinin gediş-gəlişini asanlaşdırır və yetişdirdikləri məhsulun mərkəzə daşınmasında əvvəllər mövcud olan çətinliklər aradan qalxır. Həmin yollar hesabına, təbii ki, regionların iqtisadi potensialı da yüksəlir. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq, yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır.

Azərbaycanda müasir nəqliyyat-yol infrastrukturunun yaradılmasını qarşıya əsas hədəf kimi qoyan Prezident İlham Əliyev avtomobil yollarının, yol qurğularının açılış mərasimlərində şəxsən iştirak edir, habelə, işlərin gedişi ilə tanış olaraq, öz dəyərli tapşırıq və tövsiyələrini verir. Prezident İlham Əliyevin regionlarda nəzərdə tutulan bütün infrastruktur layihələrin icra edilməsinin, insanların həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir edən turizmin və kənd təsərrüfatının inkişafına gətirib çıxaran kənd və qəsəbələrarası avtomobil yollarının tikintisi istiqamətdə genişmiqyaslı işlər aparılır. Kəndlərarası və qəsəbələrarası avtomobil yolu layihəsi, habelə, digər respublika əhəmiyyətli və magistral avtomobil yollarının layihələrinin icrası uğurla həyata keçirilir.

***Zümrüd BAYRAMOVA***




# Leyla Abdullayeva: "Ermənistanda islamafobiya və ksenofobiya pik səviyyədədir"

***"Prezident İlham Əliyevin Azərbaycan Respublikasının Milli Məclisindəki çıxışından sonra Ermənistan Xarici İşlər Nazirliyinə (XİN) 4 gün vaxt lazım oldu ki, bu çıxışı qavrasınlar və açıqlama hazırlasınlar". "Report" xəbər verir ki, bu, Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın şərhində qeyd olunub. "Milli Məclisin ilk iclasında Prezident İlham Əliyev tərəfindən proqram xarakterli çıxış səsləndirildi və həmişə olduğu kimi, bu dəfə də cənab Prezident tərəfindən hər hansı qeydlərə, vərəqlərə baxılmadan bu çıxış təqdim olundu. Çıxış əsnasında dövlət rəhbəri tərəfindən tarixi faktlara istinad edilərək Ermənistana növbəti dəfə zərbə vuruldu. Burada xüsusilə, 1805-ci il Kürəkçay Müqaviləsinə istinad edildi. Tövsiyə edərdik ki, Ermənistan XİN-i tərəfindən Kürəkçay Müqaviləsi öyrənilsin; hətta bu müqavilə haqqında broşuranın hazırlanması da faydalı olardı.***

Onların bu müqaviləni yaxından öyrənməsi Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin vaxtını yaxınlaşdırardı. Bu tarixi müqaviləni oxuyan hər kəs görür ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu müqaviləni bir tərəfdən Qarabağ xanı İbrahimxəlil xan, digər tərəfdən isə Qafqazdakı rus qoşunlarının baş komandanı Sisianov imzalamışdı. Prezident İlham Əliyevin sözləri ilə desək, Kürəkçay müqaviləsində erməni xalqı/toplumu haqqında bir cümlə belə yoxdur. Prezidentin toponimlərlə bağlı sözləri tam həqiqəti əks etdirir. Bununla bağlı xəritələrə və internet resurslarına baxmaq kifayət ki, Ermənistan tərəfi bu həqiqətlərlə tanış olsun. Məsələn, Yeğeqnadzor, onun əzəli adı Keşişkənddir, Razdan çayı, əzəli adı Zəngi çaydır, Sevan gölü isə tarixi Azərbaycan gölü olan Göyçə gölüdür.

Prezident öz çıxışında Ermənistanın Respublika Partiyası ilə də bağlı məsələlərə toxunmuşdur. Uzun müddət Ermənistanda hakimiyyətdə olan Respublika Partiyasının gerbi faşistlərin gerbi ilə eynilik təşkil edirdi. Ermənistan XİN-in şərhində isə bu məqama yer verilmir və onun üzərindən sükutla keçilir. Ermənistanda keçmiş hakimiyyət nümayəndələrini, bu ölkənin sabiq prezidentlərini istintaqa cəlb ediblər, həbs ediblər. R.Köçəryan bir ildir ki, bir sıra ittihamlarla həbs olunub, S.Sarkisyana qarşı isə korrupsiya ittihamları irəli sürülüb. Əslində bu iki şəxs 1992-ci ildə törədilmiş Xocalı soyqırımına və insanlıq əleyhinə cinayətə görə cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Bir sabiq prezidentin həbs olunması, digərinə qarşı ittihamların irəli sürülməsi və bundan sonra demokratiyadan danışmaq gülüncdür və ikrah doğurur. Bu günlərdə isə Ermənistan hökumətinin rəhbəri tərəfindən Konstitusiya Məhkəməsinin hakiminə bir bahalı qələmə görə ittihamlar irəli sürülüb və ölkədə ümumxalq referendumu keçirilir. Ermənistan rəhbərliyi tərəfindən həyata keçirilən bu siyasət əslində demokratiyaya böyük bir zərbədir.

Ermənistan Baş nazirinin metroda biabırçı hərəkəti onun ölkədə nə qədər hörmətsiz olduğunu açıq şəkildə göstərir. İnsanlar ona salam belə vermirlər və gənc xanım tərəfindən vərəqin cırılaraq onun üzünə atılması da onun nə dərəcədə hörmətsiz olduğunun göstəricisidir.

Ermənistanda islamafobiya və ksenofobiya pik səviyyədədir. Əhalinin 99.9%-ni məhz ermənilər təşkil edir. Azərbaycan isə çox konfessiyalı və çox millətli bir dövlətdir. Prezidentin çıxışında dünya dini liderlərinin, xüsusilə Roma Papasının, bu məsələdə Azərbaycanla bağlı səsləndirdiyi ifadələri dilə gətirilmişdir. Lakin bu günədək dünya dini liderləri tərəfindən Ermənistandakı çox konfessiyalılıq haqqında heç bir söz eşitməmişik. Çünki Ermənistanda faşizm və ksenofobiya mahiyyətli siyasət həyata keçirilir. Bütün bu illər ərzində Ermənistan gəncləri faşizm ideologiyası əsasında böyüdülüb. Ermənistan özünü əziyyət çəkən xalq kimi təqdim etməsi, özünü alçaltmaqdan və yalançı tarix ilə spekulyasiya etməkdən başqa bir şey deyildir. Ermənistanın hazırkı hakimiyyətinin qeyri-legitim olması heç kimə sirr deyil. Siyasi rəqiblərinə qarşı repressiyaların həyata keçirilməsi Ermənistan hakimiyyətinin anti-demokratik və anti-insani mahiyyətini açıq şəkildə nümayiş etdirir.

Azərbaycanın Avropa qurumları ilə əlaqələrinə gəldikdə isə, Prezident İlham Əliyev tərəfindən Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə müsbət qiymət verilmişdir. Bəzi Avropa qurumlarında Ermənistanın təsiri altında Azərbaycana qarşı çirkin niyyətli olan şəxslər Azərbaycan tərəfindən ifşa edilməkdə davam etdiriləcəkdir. Məsləhət görərdik ki, Ermənistan XİN-i Azərbaycanın Avropa qurumları ilə əlaqələrinə burnunu soxmasın.

Yaxşı bilirik ki, Ermənistan Avropa qurumları ilə müzakirələrdə bir söz, digər tərəfdaşları ilə müzakirələrdə isə tamamilə fərqli fikirlər işlədir. Hətta Avropa ilə təmaslarda o iddia ilə çıxış edir ki, bəzi müttəfiqləri və tərəfdaşları olmasa sanki Ermənistan Avropaya daha da yaxın olardı. Bu da Ermənistanın yürütdüyü riyakar siyasətin bir nümunəsidir. Ermənistan XİN-i 4 gün ərzində bir vərəqin yazılmasına müvəffəq olması onların məhdud düşüncəsini əks etdirir.

Bütün bunlar Ermənistanın məsuliyyətsiz və təhlükəli siyasət yürütdüyünün əlamətləridir. Məhz Ermənistanın yürütdüyü bu siyasət regional təhlükəsizliyə ciddi təhdid törədir. Belə məsuliyyətsiz hərəkətlər davam edərsə vəziyyətin gərginləşməsinə görə məsuliyyəti tam şəkildə Ermənistan daşıyacaqdır.AR Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leya Abdullayevanın şərhi

Prezident İlham Əliyevin Azərbaycan Respublikasının Milli Məclisindəki çıxışından sonra Ermənistan Xarici İşlər Nazirliyinə (XİN) 4 gün vaxt lazım oldu ki, bu çıxışı qavrasınlar və açıqlama hazırlasınlar.

Milli Məclisin ilk iclasında Prezident İlham Əliyev tərəfindən proqram xarakterli çıxış səsləndirildi və həmişə olduğu kimi, bu dəfə də cənab Prezident tərəfindən hər hansı qeydlərə, vərəqlərə baxılmadan bu çıxış təqdim olundu. Çıxış əsnasında dövlət rəhbəri tərəfindən tarixi faktlara istinad edilərək Ermənistana növbəti dəfə zərbə vuruldu. Burada xüsusilə, 1805-ci il Kürəkçay Müqaviləsinə istinad edildi. Tövsiyə edərdik ki, Ermənistan XİN-i tərəfindən Kürəkçay Müqaviləsi öyrənilsin; hətta bu müqavilə haqqında broşuranın hazırlanması da faydalı olardı. Onların bu müqaviləni yaxından öyrənməsi Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin vaxtını yaxınlaşdırardı. Bu tarixi müqaviləni oxuyan hər kəs görür ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu müqaviləni bir tərəfdən Qarabağ xanı İbrahimxəlil xan, digər tərəfdən isə Qafqazdakı rus qoşunlarının baş komandanı Sisianov imzalamışdı. Prezident İlham Əliyevin sözləri ilə desək, Kürəkçay müqaviləsində erməni xalqı/toplumu haqqında bir cümlə belə yoxdur. Prezidentin toponimlərlə bağlı sözləri tam həqiqəti əks etdirir. Bununla bağlı xəritələrə və internet resurslarına baxmaq kifayət ki, Ermənistan tərəfi bu həqiqətlərlə tanış olsun. Məsələn, Yeğeqnadzor, onun əzəli adı Keşişkənddir, Razdan çayı, əzəli adı Zəngi çaydır, Sevan gölü isə tarixi Azərbaycan gölü olan Göyçə gölüdür.

Prezident öz çıxışında Ermənistanın Respublika Partiyası ilə də bağlı məsələlərə toxunmuşdur. Uzun müddət Ermənistanda hakimiyyətdə olan Respublika Partiyasının gerbi faşistlərin gerbi ilə eynilik təşkil edirdi. Ermənistan XİN-in şərhində isə bu məqama yer verilmir və onun üzərindən sükutla keçilir. Ermənistanda keçmiş hakimiyyət nümayəndələrini, bu ölkənin sabiq prezidentlərini istintaqa cəlb ediblər, həbs ediblər. R.Köçəryan bir ildir ki, bir sıra ittihamlarla həbs olunub, S.Sarkisyana qarşı isə korrupsiya ittihamları irəli sürülüb. Əslində bu iki şəxs 1992-ci ildə törədilmiş Xocalı soyqırımına və insanlıq əleyhinə cinayətə görə cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Bir sabiq prezidentin həbs olunması, digərinə qarşı ittihamların irəli sürülməsi və bundan sonra demokratiyadan danışmaq gülüncdür və ikrah doğurur. Bu günlərdə isə Ermənistan hökumətinin rəhbəri tərəfindən Konstitusiya Məhkəməsinin hakiminə bir bahalı qələmə görə ittihamlar irəli sürülüb və ölkədə ümumxalq referendumu keçirilir. Ermənistan rəhbərliyi tərəfindən həyata keçirilən bu siyasət əslində demokratiyaya böyük bir zərbədir.

Ermənistan Baş nazirinin metroda biabırçı hərəkəti onun ölkədə nə qədər hörmətsiz olduğunu açıq şəkildə göstərir. İnsanlar ona salam belə vermirlər və gənc xanım tərəfindən vərəqin cırılaraq onun üzünə atılması da onun nə dərəcədə hörmətsiz olduğunun göstəricisidir.

Ermənistanda islamafobiya və ksenofobiya pik səviyyədədir. Əhalinin 99.9%-ni məhz ermənilər təşkil edir. Azərbaycan isə çox konfessiyalı və çox millətli bir dövlətdir. Prezidentin çıxışında dünya dini liderlərinin, xüsusilə Roma Papasının, bu məsələdə Azərbaycanla bağlı səsləndirdiyi ifadələri dilə gətirilmişdir. Lakin bu günədək dünya dini liderləri tərəfindən Ermənistandakı çox konfessiyalılıq haqqında heç bir söz eşitməmişik. Çünki Ermənistanda faşizm və ksenofobiya mahiyyətli siyasət həyata keçirilir. Bütün bu illər ərzində Ermənistan gəncləri faşizm ideologiyası əsasında böyüdülüb. Ermənistan özünü əziyyət çəkən xalq kimi təqdim etməsi, özünü alçaltmaqdan və yalançı tarix ilə spekulyasiya etməkdən başqa bir şey deyildir. Ermənistanın hazırkı hakimiyyətinin qeyri-legitim olması heç kimə sirr deyil. Siyasi rəqiblərinə qarşı repressiyaların həyata keçirilməsi Ermənistan hakimiyyətinin anti-demokratik və anti-insani mahiyyətini açıq şəkildə nümayiş etdirir.

Azərbaycanın Avropa qurumları ilə əlaqələrinə gəldikdə isə, Prezident İlham Əliyev tərəfindən Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə müsbət qiymət verilmişdir. Bəzi Avropa qurumlarında Ermənistanın təsiri altında Azərbaycana qarşı çirkin niyyətli olan şəxslər Azərbaycan tərəfindən ifşa edilməkdə davam etdiriləcəkdir. Məsləhət görərdik ki, Ermənistan XİN-i Azərbaycanın Avropa qurumları ilə əlaqələrinə burnunu soxmasın. Yaxşı bilirik ki, Ermənistan Avropa qurumları ilə müzakirələrdə bir söz, digər tərəfdaşları ilə müzakirələrdə isə tamamilə fərqli fikirlər işlədir. Hətta Avropa ilə təmaslarda o iddia ilə çıxış edir ki, bəzi müttəfiqləri və tərəfdaşları olmasa sanki Ermənistan Avropaya daha da yaxın olardı. Bu da Ermənistanın yürütdüyü riyakar siyasətin bir nümunəsidir. Ermənistan XİN-i 4 gün ərzində bir vərəqin yazılmasına müvəffəq olması onların məhdud düşüncəsini əks etdirir.

Bütün bunlar Ermənistanın məsuliyyətsiz və təhlükəli siyasət yürütdüyünün əlamətləridir. Məhz Ermənistanın yürütdüyü bu siyasət regional təhlükəsizliyə ciddi təhdid törədir. Belə məsuliyyətsiz hərəkətlər davam edərsə vəziyyətin gərginləşməsinə görə məsuliyyəti tam şəkildə Ermənistan daşıyacaqdır", - L.Abdullayeva bildirib.

## Ermənistanda daha iki nəfərdə koronavirus aşkarlanıb




Ermənistanda daha iki nəfərdə koronavirus aşkarlanıb. Xezerxeber.az-ın news.am-a istinadən verdiyi xəbərə görə, bu barədə Ermənistanın Səhiyyə naziri Arsen Torosyan bildirib. Onun sözlərinə görə, hər iki şəxsi İtaliyadan qayıdan və Eçmiədzində nişan mərasimində iştirak edən qadın koronavirusa yoluxdurub. Nazir bildirib ki, həmin qadında koronavirus aşkarlandıqdan sonra onunla ünsiyyətdə olanlar dərhal karantinə alınıb. Bununla da Ermənistanda koronavirusa yoluxanların sayı 8-ə çatıb.

# "Qadın və cəmiyyət"

## *"Səs" qəzetində bu mövzuda dəyirmi masa keçirildi*



***Artıq illərdir ki, "Səs" qəzeti tərəfindən, ənənəvi olaraq, ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən, günün aktual və prioritet mövzuları ətrafında silsilə xarakterli dəyirmi masalar təşkil olunur. Bu dəyirmi masalarda ölkəmizdə dövlət başçısının rəhbəriliyi ilə həyata keçirilən islahatlar və layihələr, eləcə də, xalqımızın tarixi, milli-mənəvi dəyərləri ətrafında müzakirələr aparılır.***

Növbəti dəyirmi masa feminist qadınlar tərəfindən 8 Mart Gününü "8 MARŞ - Bizimdir Hürr Küçələr" şüarı altında keçirilən icazəsiz aksiya ilə əlaqədar təşkil olunmuşdu. Dəyirmi masada Bakı Dövlət Universitetinin hüquq fakültəsi, insan hüquqları və informasiya hüququnun dosenti Daşqın Qəmbərov, Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü Anar Xəlilov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin informasiya və analitik araşdırmalar şöbəsinin baş məsləhətçisi Aynur Veysəlova-Abbasova, "Gənclərin Həmrəyliyi" İctimai Birliyinin sədri Zülfiyyə Nuriyeva, "Abidələrin Müdafiəsi Təşkilatı" İctimai Birliyinin sədri Faiq İsmayılov, "XXI Əsrin Qadınları" İctimai Birliyinin sədri Mahirə Əmirhüseynova, Pirallahı rayon Qızıl Aypara Cəmiyyətinin sədri Təranə İsgəndərova, "Əlil Qadınlar Cəmiyyəti" İctimai Birliyinin sədri Məhluqə Rəhimova, DAK-ın idarə heyətinin üzvü Fatma Sofiyeva iştirak edirdilər.

Dəyirmi masanı giriş sözü ilə açan "Səs" qəzetinin siyasət şöbəsinin müdiri İlham Əliyev müdrikliyi ilə seçilən Azərbaycan qadınının tarix boyu cəmiyyətimizin milli-mənəvi dəyərlər sisteminin formalaşaraq inkişaf etməsində, eləcə də, ümumi tərəqqisində müstəsna rol oynadığını qeyd etdi. O bildirdi ki, bu günlərdə mənəvi dəyərlərimizə zidd olan "8 MARŞ - Bizimdir Hürr Küçələr" şüarı altında keçirilən aksiya cəmiyyətimiz tərəfindən etirazlarla qarşılandı. Azərbaycanda qadınların rolunun artırılması, qadınlarla kişilər arasında bərabərliyin təmin edilməsi, qadın və ailə problemlərinin həlli istiqamətində böyük işlərə imza atılıb.

-Daşqın müellim, yaxşı olardı ki, Azərbaycanda qadınlara olan diqqət, dövlət gender siyasəti, qadınların hüquqlarının qorunması, ictimai fəallığının artırılması məqsədi ilə qəbul olunan qanunlara və həyata keçirilən islahatlara nəzər salaq.

### QADINLARA QARŞI MƏİŞƏT ZORAKILIĞININ ARADAN QALDIRILMASI" HAQQINDA QANUN QADIN HÜQUQLARININ MÜDAFİƏSİ SAHƏSİNDƏ MÜHÜM MƏRHƏLƏNİN ƏSASINI QOYDU

**DAŞQIN QƏMBƏROV:**

- İlk olaraq, "Səs" qəzetinin belə bir aktual mövzuda dəyimi masa təşkil etdiyinə görə minnətdarlığımı bildirirəm. Əvvəlcə feminizm anlayışna diqqət yetirmək istərdim. Feminizm qadınlara verilən ictimai qiymətləndirmədə ədalətsizliyin olmasının qəbul edilməsindən meydana çıxmışdır. Feminizmin ilk dalğası XIX əsrin sonu-XX əsrin birinci yarısına təsadüf edir. Onun əsas məzmunu cinslərin hüquq bərabərliyinə nail olmaq uğrunda mübarizədən ibarətdir. Bildiyimiz kimi, ölkəmizdə milli qadın siyasəti ilk dəfə Azərbaycan Xalq Cumhuriyyəti dövründə dövlət statusu almışdır. Müsəlman dünyasında, ilk dəfə olaraq kişilərlə bərabər, qadınlara seçkilərdə iştirak etmək, seçmək və seçilmək hüququ verilmişdi. Bir əsrdən artıqdır ki, Azərbaycan qadınları hüquqlara malikdir. Qeyd edək ki, Fransada 1944-cü ildə, Yaponiyada isə 1945-ci ildə qadınlara hüquq verilmişdir.

Müstəqillik illərində qadın hüququ ilə bağlı olan qanunlara nəzər salsaq, görərik ki, demokratik dəyərlərə önəm verən Azərbaycanda bununla bağlı kifayət qədər sənədlər mövcuddur. Onlardan bir neçəsini nəzərdən keçirək. 2000-ci ilin mart ayının 6-da Ulu Öndər Heydər Əliyevin "Azərbaycan Respublikasında dövlət-qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanı ölkədə qadın siyasətinin gerçəkləşməsinə xidmət edən məsələlərdəndir. 2006-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev "Gender - kişi və qadınların bərabərliyi təminatları haqqında" çox mühüm Qanun imzaladı. Həmin Qanuna əsasən, Azərbaycan qadınları çox geniş hüquqi təminatlar əldə etdilər, kişi və qadınların dövlətin idarə olunmasında və qərar qəbul edilməsində bərabər təmsilçiliyinə, ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına təminat verir. 2010-cu ildə isə dövlət başçısı "Qadınlara qarşı məişət zorakılığının aradan qaldırılması" haqqında Qanunu təsdiqləməklə qadın hüquqlarının müdafiəsi sahəsində mühüm mərhələnin əsasını qoydu.

### KÜÇƏLƏRDƏ DƏYƏRLƏRİMİZƏ SIĞMAYAN ŞÜARLARLA ÇIXIB ƏXLAQ NORMALARINA SIĞMAYAN HƏRƏKƏTLƏR AZƏRBAYCAN QADININA YARAŞMAYAN ADDIMDIR

**MAHİRƏ ƏMİRHÜSEYNOVA:**

- İlk olaraq deyim ki, aksiya öyrədilmiş bir qrup tərəfindən təşkil olunmuşdur. Bu "qadınlar" milli dəyərlərimizə tamamilə zidd olan bir aksiyanın iştirakçıları idilər. Azərbaycan qadınına verilən hüquqlar dünyanın heç bir ölkəsində yoxdur. Azərbaycan qadınına dövlətimizin göstərdiyi diqqət və qayğı, eləcə də, kişinin qadına yanaşma tərzi və münasibəti dünyanın heç bir ölkəsində təsadüf olunmur. Aksiya iştirakçılarının bir qisminin 18 yaşı, bəzilərinin isə heç 18 yaşı da yox idi. Şüarlarında irəli sürdüklərinin də heç bir məntiqi əsası yox idi. Axı, sən cəmiyyətdə nə baş verdiyindən xəbərsizsən və hansı huquqların tapdanılmasından danışırsan. Onlara qarşı cəza tətbiq olunmalıdır.

Cəmiyyətimizdə hər zaman müqəddəs sayılan, milli-əxlaqi dəyərlər üzərində qurulan, fərqliliyi və möhkəm təməli ilə seçilən Azərbaycan qadınının rifah halının yaxşılaşdırılması, ailə ənənələrinin qorunub-saxlanılması və gələcək nəsillərə ötürülməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər reallaşır. Belə olan halda, küçələrdə dəyərlərimizə sığmayan şüarlarla çıxıb əxlaq normalarına sığmayan hərəkətlər etmək Azərbaycan qadınına yaraşmayan addımdır. Bu məqamda Azərbaycan polisinin onlara necə təmkinlə, mədəniyyətlə yanaşmasını da vurğulamaq istərdim. Görün, polisimiz onlara yağdırılan təhqiramiz sözlərə qarşı necə səbrlə yanaşdılar. Mən belə səbrli və təmkinli polisimizə təşəkkürümü bildirirəm.

### AZƏRBAYCAN QADINLARI KİŞİLƏRLƏ BƏRABƏR HÜQUQDADIRLAR VƏ DÖVLƏT STRUKTURLARINDA VƏ SEÇKİLİ ORQANLARDA TƏMSİL OLUNURLAR

**ANAR XƏLİLOV:**

- Azərbaycandan kənarda, xarici dövlətlərdə anti-Azərbaycan kampaniyasının aparılması, eləcə də ölkəmizdə keçirilən aksi-

yaların arxasında kimlərin dayandığı bəlli həqiqətdir. Təbii ki, feminizm adı altında keçirilən aksiyada bu anlayışa aid olmayan şüarlar var idi. Feminizmlə bu aksiyada səslənən şüarlar tamamilə fərqli idi. Onların şüarları tərbiyəsizlikdən başqa bir anlam daşımırdı. Azərbaycanın dinamik inkişafı və beynəlxalq nüfuzunun, mütəmadi olaraq, artması bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Həmin anti-Azərbaycan dairələri ölkəmizə qarşı qarayaxma kampaniyası aparır, qərəzli yanaşma nümayiş etdirirlər. Odur ki, hər bir vətəndaş Azərbaycandakı bu təhlükəsiz mühiti və sabitliyi göz bəbəyi kimi qorumalıdır.

Xaricdə mövcud olan anti-Azərbaycan qüvvələrin öz niyyətlərini Azərbaycanda həyata keçirə bilmirlər. Səbəb isə ölkəmizdə mövcud olan xalq və iqtidar birliyidir. Azərbaycan Prezidentinin prinsipiallığı, yürütdüyü mükəmməl daxili və xarici siyasət bütün məqamlarda Azərbaycanı ancaq işıqlı gələcəyə aparıb, bundan sonra da aparacaq.

Cənab İlham Əliyev kimi bir Liderin rəhbər olduğu ölkədə heç bir məkrli niyyəti, qara ideologiyanı, absurd ssenariləri həyata keçirmək mümkün deyil. Anti-Azərbaycan qüvvələr ölkənin daxilində müəyyən siyasi qruplaşmalarla dialoqa girib, siyasi sabitliyi və əmin-amanlığı pozmağa çalışırlar. Bu aksiya Azərbaycan ailəsinə zərbə vurmaq məqsədi daşıyır. Görün, bu gün Azərbaycan qadınları kişilərlə bərabər hüquqdadırlar və dövlət strukturlarında, seçkili orqanlarda təmsil olunurlar. Keçirilən aksiyanın sifarişçiləri var idi. Bu günə qədər keçirilən aksiyaların bir nəticəsi olmadığından indi də bu yola əl atıblar.





**“SƏS” QƏZETİNİ ƏMƏKDAŞI:**

- Aynur xanım, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi belə aksiyanın iştirakçısı olanlara qarşı hansı tədbirləri görür?

## SİYASİ PARTİYALARDA VƏ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINDA FƏALİYYƏT GÖSTƏRƏN, RƏHBƏR VƏZİFƏLƏRDƏ ÇALIŞAN QADINLAR ÖLKƏMİZDƏ HƏYATA KEÇİRİLƏN GENDER BƏRABƏRLİYİNİN TƏCƏSSÜMÜDÜR

**AYNUR VEYSƏLOVA-ABBASOVA**

- Bu gün qloballaşma və modernləşmə şəraitində ölkəmizdə, bütün sahələrdə olduğu kimi, ailə məsələlərinə də böyük diqqət yetirilir. Məlumdur ki, 15 may Birləşmiş Millətlər Təşkilatının qərarı ilə bütün dünyada Beynəlxalq Ailə Günü kimi qeyd olunur. Beynəlxalq Ailə Günü BMT-nin Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq, 1994-cü ildən qeyd olunur. Azərbaycanda da bu gün qeyd olunur. Bu, bir faktdır ki, Azərbaycanda dövlət ailə siyasətinin, gender siyasətinin formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bildiyiniz kimi, Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə 1998-ci ildə Azərbaycanda “Qadın Problemləri üzrə Dövlət Komitəsi”nin yaradılması bu istiqamətdə daha bir addım oldu. Dövlət ailə siyasəti Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, bir sıra dövlət proqramlarında özünün uğurlu inkişafını tapmışdır. Bu sahəyə böyük həssaslıqla yanaşan Prezident İlham Əliyev 2006-cı il fevralın 6-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Sərəncam imzaladı. Hazırda Komitə dövlətin ailə siyasətini həyata keçirən bir qurum olaraq, mövcud problemlərin üzərində işləyir və onların həlli istiqamətində mühüm tədbirlər həyata keçirir.

Bu gün Azərbaycan qadınına bütün hüquqlar verilib. Qadınların ictimai aktivliyi ilə yanaşı, onların siyasətdə iştirakı da artmaqdadır. Siyasi partiyalarda və qeyri-hökumət təşkilatlarında fəaliyyət göstərən, rəhbər vəzifələrdə çalışan qadınların olması ölkəmizdə həyata keçirilən gender bərabərliyinin təcəssümüdür. Bu gün yerli idarəetmə orqanlarında 39 faiz qadınlar təmsil olunur. Biz statistik göstəricilərə baxsaq, Azərbaycan qadınına verilən bərabərliyin, hüququn şahidi olarıq.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın simasında Azərbaycan qadınına məxsus olan yüksək dəyərləri görə bilərik. Mehriban Əliyeva bütün əməlləri ilə nümunə olan Azərbaycan qadını obrazıdır. Azərbaycan qadını deyəndə, biz yüksək dərərləri özündə birləşdirən, iradəli, sağlam düşüncəli bir xanım göz önünə gəlir. Qoy aksiyada iştirak edənlər öz potensiallarını Azərbaycanın gələcək inkişafına sərf etsinlər və Azərbaycan qadınında olan dəyərləri özlərində yaşatsınlar.

**ZÜLFİYYƏ NURİYEVA:**

- Mən deyərdim ki, bu günün gəncini meydanda tək qoymaq xoşagəlməz olar. Bu gün ölkəmizdə gənclərin inkişafı, çalışması, öz istedadını üzə çıxarması istiqamətində nə qədər imkanlar var. Ölkəmizdə Gənclər Fondu, QHT-lər və s. fəaliyyətdədir. Nə qədər yeni-yeni layihələrlə çıxış edə bilərlər. Həmin aksiya günündə mən də orada idim. İnandırım sizi ki, onlar nə etdiklərin belə bilmirdilər. Azərbaycan Milli Qəhrəmanı Mübariz İbrahimov təhqir edən fikirləri səsləndirən Nərmin Şahmarzadə yerə oturub ayaqqabısının bağını bağlaya-bağlaya qışqırdı. Mən ona yanaşıb nə üçün belə qışqırdığını soruşanda, heç bilmədi nə desin. Axı, onlar bu cəmiyyətə nə veriblər ki, nə də istəyirlər? Biz onları tutduqları yoldan geri qaytarmalıyıq. Nərmin kimlər cəzalandırılmalıdır, belə hərəkətlərdən çəkindirməlidirlər. Belə olan halda, vətəndaş cəmiyyəti fəaliyyətini artırmalıdır.

**FAİQ İSMAYILOV:**

- Bizim ölkəmiz ilk müsəlman ölkəsidir ki, qadınlara, hələ 100 il bundan əvvəl kişilərlə bərabər, seçmək və seçilmək hüquq vermişdir. Azərbaycan qadını mərd, mübariz bir qadındır. Nağıllarda, dastanlarda olduğu kimi, Azərbaycan qadını qılınc oynadan, at belində olan bir qəhrəmanlıq nümunəsidir. 70 il sovet imperiyasında yaşasaq da, bizim milli-mənəvi dəyərlərimizə zərbə vura bilmədi. Biz keçirilən aksiyanı saytlarda təbliğ etməliyik. Maarifləndirmə işləri aparılmalıdır. O insanları cəmiyyətdən təcrid yox, düzgün yola gətirməliyik. Biz onların sağlam formalaşması, sağlam düşüncə ilə bu dövlətdə yaşaması istiqamətində maarifləndirici tədbirlər təşkil etməliyik ki, kimlərinsə gələcəkdə alətinə bir daha çevrilməsinlər.

## AZƏRBAYCAN GƏNCİNİN LƏYAQƏTSİZ ƏMƏLİNƏ, KÜÇƏLƏRƏ ÇIXIB DƏYƏRLƏRİMİZƏ ZİDD OLAN HƏRƏKƏT ETMƏLƏRİNƏ GÖRƏ XƏCALƏT ÇƏKİRƏM

**MƏHLUQƏ RƏHİMOVA:**

- Ölkənin ictimai-siyasi və mədəni həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadını cəmiyyətdə böyük nüfuza malik olduğunu əməllərilə təsdiqləyib. Azərbaycan qadını bütün dövrlərdə gözəllik örnəyi olub. Bunu hər şeyi öz yaddaşında qoruyub-saxlayan tarixi salnamələr deyir. Ağıllı, cəsur sələflərimiz ən çətin məqamlarda belə ayıq-sayıqlığı, çevikliyi və düzgün qərar qəbul etmək bacarığı ilə hamını heyrətləndiriblər. Tariximizin ayrı-ayrı dövrlərində yaşayıb fəaliyyət göstərmiş qadınlar müdrikliyi və işgüzarlığı ilə keçmişimizə parlaq səhifələr yazıblar. Sözünün bütövlüyü, ictimai fəallığı, zəhməti, isməti və zəkası ilə.

300 ildir ki, bizim genefonumuzun üzərdən işləyirlər. Azərbaycan türklərinin mənəvi dəyərlərinə zərbə vurmağa çalışırlar. Mən bu gün Azərbaycan gəncinin ləyaqətsiz əməlinə, küçələrə çıxıb dəyərlərimizə zidd olan hərəkət etmələrinə görə xəcalət çəkirəm. Onları cəmiyyətə qaytarmalıyıq. Biz buna görə məsuliyyət daşıyırıq. Bu aksiyanın təşkilatçılarının kökünü araşdırmalıyıq. Nəyə görə, Azərbaycan qızı küçələrə çıxıb adət-ənənələrə zidd hərəkət etməlidir. Onlar sabahın analarıdır.

**FATMA SOFİYEVA:**

- Azərbaycan qadınının istər torpaqlarımızın müdafiəsində, milli dövlətçiliyin formalaşmasında və idarə olunmasında, istərsə də xalqımıza məxsus dəyərlər sisteminin yaşadılmasında misilsiz xidmətləri olub və bu gün də var. Tarixən Azərbaycan qadınları cəmiyyətin, nəinki elmi-mədəni, həm də ictimai-siyasi həyatında fəal rol oynamış, o, hətta bir sıra ciddi problemlərin həllində yaxından iştirak etmişdir. Xədicə İsmayılova, Rəbiyyət Məmmədova kimi qadınlar cəmiyyətimizin sağalmaz yaralarıdırlar. Azərbaycanın Tomrisləri, Sara Xatunları olub. Ulu Öndər Heydər Əliyevin həyat yoldaşı Zərif xanım Əliyeva kimi fədakar ziyalı xanımları olub. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva kimi ictimai-siyasi xadimimiz var. Bu gün bir qrup insanın küçələrə çıxıb qeyri-əxlaqi fikirlər söyləməsi bizə, Azərbaycan xalqının dəyərlərinə sığmır.

**TƏRANƏ İSGƏNDƏROVA:**

- Azərbaycan qadınının əzəməti bu gün dünya ictimaiyyətinə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın simasında daha qabarıq təqdim olunur. Müasir dövrümüzdə ziyalılığın ali zirvəsində olan ölkənin Birinci Xanımı, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın Azərbaycan üçün gördüyü işlər ölkəmizin ictimai-siyasi və mədəni həyatında danılmaz amillərdir. Yaşadığımız qloballaşma dövründə, Azərbaycanın dünyaya inteqrasiya etdiyi bir zamanda, milli-mənəvi dəyərlərin üzə çıxarılması, Azərbaycanın bir dövlət olaraq, məxsusiliyinin dünyəvi̇ləşməsi istiqamətində Mehriban xanım Əliyevanın gördüyü işlər təqdirəlayiqdir. Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin geniş təbliği, elm, təhsil, səhiyyə və idmanın inkişafını təmin edən layihələrin dəstəklənməsi, uşaq və gənclərin sağlam, millimənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişməsi və Azərbaycanın beynəlxalq nüfuzunun artmasına yönələn tədbirləri həyata keçirməklə, böyük layihələrin müəllifinə çevrilib. Bu gün gənclərimiz Azərbaycan qadınına örnək olan insanlardan öyrənməli və onların yolunun davamçısı olmalıdırlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan ÜST missiyasını alqışlayaraq, "COVID-19" hazırlıq tədbirlərini artırır



*Dünyanı bürüyən "COVID-19" adlı yeni növ koronavirusla mübarizə üsulu günü-gündən təkmilləşdirilir və əsasən, Ümumdünya Səhiyyə Təşkilatı bu istiqamətdə coğrafi cəhətdən daha genişmiqyaslı hərəkətə keçib. Belə ki, müxtəlif ölkələrlə sıx əməkdaşlıq həyata keçirilir, müvafiq tədbirlər planları müəyyənləşdirilir, bəşər övladının adıçəkilən virus qarşısında qalib olması üçün lazım olan bütün addımlar atılır.*

### Bu, eyni zamanda, insanlarda məsuliyyət hissini artırır

Onu da qeyd edək ki, ÜST-in rəsmi saytı da fəaliyyət göstərir və gündəlik olaraq koronavirusun hansı ölkələrdə nə qədər insanın yoluxması barədə, həyatlarını itirənlərin sayı haqqında, həmçinin, sağalmalar haqqında məlumatlar ictimailəşdirilir. Bu, eyni zamanda, insanlarda məsuliyyət hissini artırır, virusdan müdafiə olunmaq üçün daha geniş spektorlu tədbirlər görməyə vadar edir. Çünki yoluxucu virusun əsas təhlükə mənbəyi hava və damcı yolu ilə keçməsidir. Ona görə də, ÜST ondan qorunmaq üçün ən optimal variantları dərhal dünya ictimaiyyətinin nəzərinə çatdırır.

Beləliklə, Ümumdünya Səhiyyə Təşkilatının saytında qurumun missiyasının Azərbaycana səfəri barədə də məlumat verilib və ölkəmizin koronavirusun yayılmasının qarşısının alınması istiqamətində həyata keçirdiyi tədbirlər, ÜST-lə əməkdaşlıq məsələsi təqdir olunub.

### Azərbaycan infeksiyanın geniş yayıldığı İranla həmsərhəd olsa da, öz ərazisini virusun yayılmasından etibarlı qorumağı bacarır

Yeri gəlmişkən, hazırkı dövrə qədər Azərbaycan "COVID-19"-un az sayda idxalını təsdiqləyib. Ölkə İranla bir sərhədi bölüşür, burada "COVID-19" ilə bağlı bir çox hal təsdiqlənib. Məlum olub ki, Azərbaycan infeksiyanın geniş yayıldığı İranla həmsərhəd olsa da, öz ərazisini virusun yayılmasından etibarlı qorumağı bacarır və bu faktın özü də sübut edir ki, ölkəmizdə təhlükənin qarşısının alınması, əhalinin qorunması üçün ən kiçik detallar belə araşdırılır, mühüm önləyici addımlar atılır. Daha dəqiq desək, əgər qonşu İranda yoluxma və s. halları artan istiqamətdə gedirsə, bu dövlətlə qonşuşu olan ölkəmiz həmin təhlükədən maksimum şəkildə qorunur. Belə ki, bunun üçün Azərbaycanda bütün imkanlar mövcuddur və dövlət koronavirusla mübarizə faktorunu daim ciddi nəzarətdə saxlamaqdadır.

### Azərbaycan tərəfindən ÜST-in strateji hazırlıq və cavab planına 5 milyon ABŞ dolları ayrılıb

Digər tərəfdən, daha bir mühüm amil budur ki, Azərbaycan hökuməti qonşu ölkələrlə əlaqəli şəkildə "COVID-19"-un yayılmasının qarşısının alınmasında qlobal səylərə töhfə verir. ÜST-in strateji hazırlıq və cavab planına 5 milyon ABŞ dolları ayrılıb. Məhz bu reallığın özü də sübut edir ki, Azərbaycan digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də daim beynəlxalq əməkdaşlıq məsələsi öncüllük təşkil edir. Eyni zamanda, qeyd etmək yerinə düşərdi ki, əgər "COVID-19" artıq panemiya mərhələsinə keçid alıbsa, ölkəmizin onunla mübarizədə beynəlxalq çərçivədə fəaliyyət göstərməsi həm ÜST tərəfindən, həm də dünyanın bir sıra ölkələri tərəfindən alqışlanır. Bu, həm də Azərbaycanın humanitar missiya sahəsində də liderlik mövqeyini təsdiq edən reallıqdır.

### Bəşər övladı "COVID-19"-a qalib gələcək!

Başqa tərəfdən, ölkəmiz başqa xarici ölkələrə mühüm nümunə rolunu oynamaqdadır. Azərbaycan hökumətinin, nəinki koronavirusla mübarizədə, eləcə də, digər sahələrdə humanitar mövqeyini ortaya qoyması, problemlərin həllinə töhfələri, dəstəyi, əlbəttə ki, birmənalı şəkildə alqışlanmaqdadır.

Sonda isə qeyd etmək yerinə düşərdi ki, dünyanın elm və texnika cəhətdən inkişafı və tərəqqisi də insanlarda belə bir təəssürat yaradır: bəşər övladı, çox qısa zamanda, dünyanı cənginə alan "COVID-19"-a qalib gələcək və onun bir daha geri qayıtmaması üçün bütün gücünü səfərbər edib, insanlığın gücünü göstərəcək. İnsanlığın qorunması üçün koronavirusla belə bir amansız mübarizədə Azərbaycanın da yer alması, əlbəttə ki, sevindirici və qürurdoğurucudur.

**Rövşən RƏSULOV**

# "Azərbaycanın dövlət büdcəsində qeyri-neft sektorunun payı 20 faizdən 50 faizə qədər yüksəlib"



Azərbaycan xarici şoklara çox qısa zamanda reaksiya verir və bunun ölkə iqtisadiyyatına təsirini minimumlaşdırmağa çalışır. Bu sözləri AZƏRTAC-a Milli Məclisin deputatı Vüqar Bayramov deyib. "OPEC və OPEC üzvü olmayan ölkələrin anlaşma imzalaya bilməməsi dünya bazarında neftin qiymətinin kəskin enməsi ilə müşahidə olundu. Belə ki, neft bazarı bu həftə praktik olaraq çöküşlə başladı. Bu, 1991-ci ildən sonra neftin dünya bazarında ən aşağı qiymət idi. Sözsüz ki, dünya bazarında neftin qiymətinin dəyişməsi xarici amil olaraq Azərbaycanın iqtisadiyyatına təsir göstərir. Neft bazarındakı volatillik isə ölkə iqtisadiyyatına bağlı məsələ deyil. 2014-cü ildən sonra ölkəmizdə qeyri-neft sektorunun inkişafı, eləcə də iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı həyata keçirilən tədbirlər mərhələli şəkildə neftdən asılılığın aradan qaldırılmasına xidmət edib. Həmin il qlobal neft şoku yaranan zaman Azərbaycanın dövlət büdcəsində neft sektorunun payı 80 faiz idisə, bu rəqəm artıq 50 faizədək azalıb və qeyri-neft sektorunun payı 20 faizdən 50 faizə qədər yüksəlib. Bu, ondan xəbər verir ki, ötən müddətdə büdcə gəlirləri ilə bağlı addımların mərhələli şəkildə atılması sayəsində iqtisadiyyatın şaxələndirilməsinə nail olunması istiqamətində uğurlar əldə edilib", - deyə V.Bayramov diqqətə çatdırıb.

Milli Məclisin deputatı deyib: "Nazirlər Kabinetində keçirilən görüş ondan xəbər verir ki, Azərbaycan xarici şoklara çox qısa zamanda reaksiya verir və bunun ölkə iqtisadiyyatına təsirini minimumlaşdırmağa çalışır. 2014-cü ildən sonra həyata keçirilən siyasət praktik olaraq dövlət rezervlərinin artırılmasına xidmət edir. Xarici borc məbləğində azalmalar olub və xarici borcun ümumi daxili məhsuldakı payı 17 faizədək azalıb. Eyni zamanda, dövlət rezervlərinin həcminin 50 milyard dollardan çox olması valyuta ehtiyatlarının payının ümumi daxili məhsuldan daha çox olmasına səbəb olur. Bu da öz növbəsində, xarici şokların təsirlərinin minimumlaşdırılması baxımından vacibdir".

"İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı islahatların sürətləndirilməsi əsas prioritet məsələlərdən biridir. Son hadisələr bir daha onu təsdiq edir ki, Azərbaycanda dərinləşmiş iqtisadi islahatlar davam edəcək. Növbəti mərhələdə həm islahatların dərinləşməsi, həm neft sektorunun ümumi iqtisadiyyatda payının azaldılması və iqtisadiyyatın şaxələndirilməsi islahatların əsas istiqamətləri olaraq qalacaq. 2019-cu ildə islahatlar, xüsusən də gizli iqtisadiyyata qarşı aparılan mübarizə dövlət büdcəsindən əlavə olaraq 1 milyard manat vergi daxilolmalarının cəlb edilməsinə imkan verdi. Bu ilin yanvar-fevral aylarında da vergi daxilolmaları proqnozlaşdırılandan daha çox olub. Bu, əsasən qeyri-neft sektoru hesabına baş verib. Qeyri-neft sənayesində 20 faizdən çox, ümumi daxili məhsulda 2,8 faiz artım qeydə alınıb. Qeyri-neft ümumi daxili məhsuldakı artım 6,5 faizdən çoxdur. Bu, ondan xəbər verir ki, qlobal şoklara və neft bazarındakı volatilliyin yüksək olmasına baxmayaraq Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı islahatları davam etdirir. Bu da nəticə etibarilə özünü iqtisadiyyatın strukturunda göstərməkdədir. Bu baxımdan çevik reaksiyalar, atılan addımlar növbəti mərhələdə də qlobal şokların və xarici iqtisadi faktorların ölkəmizin iqtisadiyyatına təsirlərini minimumlaşdırmağa imkan verəcək. Azərbaycan Strateji Yol Xəritəsinə uyğun olaraq dərinləşmiş iqtisadi islahatları davam etdirəcək", - deyə o bildirib.

# Sədaqət Vəliyeva: "Çoxpartiyalı və siyasi plüralizmin olduğu parlamentin qarşısında böyük vəzifələr dayanır"

"Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında iştirak edən Prezident İlham Əliyevin çıxışı proqram xarakterli idi. Dövlət başçısı ölkəmizin sosial-iqtisadi sektoru ilə yanaşı, ictimai-siyasi tərəflərinə də toxundu, əsas fəaliyyət istiqamətləri barədə danışdı". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.



Sədaqət Vəliyeva bildirib ki, Prezident İlham Əliyev parlamentin qarşısında duran mühüm vəzifələri aydın şəkildə izah etdi: "Aydındır ki, ölkəmizdə həyata keçirilən köklü islahatlar qanunvericilik hakimiyyətindən də yan ötə bilməzdi. Bu mənada, xalqın iradəsi əsasında və demokratik, şəffaf seçkilərlə formalaşmış yeni parlament həmin reformalara adekvat cavab verməli, qanunvericilik sahəsində çevik və effektiv addımlar atmalıdır. Əslində, Cənab Prezident çıxışında hansı sahələrin prioritet olduğunu da açıqladı və bir növ perspektiv işlərin konturlarını müəyyənləşdirdi".

"Prezident İlham Əliyev deputatların vəzifə səlahiyyətlərini, fəaliyyət istiqamətlərini də göstərdi, bir sıra tövsiyələrini də verdi" deyən Sədaqət Vəliyeva əlavə edib ki, parlamentdə təmsil olunan deputatlar fəaliyyətləri ilə seçicilərinin etimadını doğrultmalıdır: "Altıncı çağırış Milli Məclisdə 10-dan artıq siyasi partiya təmsil olunur. Çoxpartiyalı və siyasi plüralizmin olduğu parlamentin qarşısında, əlbəttə ki, böyük vəzifələr dayanır. Bu kontekstdə Prezident İlham Əliyev siyasi dialoq haqqında da danışdı. Ölkəmizin siyasi həyatında cərəyan edən prosesləri dərindən təhlil edən dövlət başçısı, eyni zamanda, xarici anti-Azərbaycan dairələri tərəfindən yeni "beşinci kolon" axtarışları aparıldığını da dilə gətirdi. Bu mənada, Cənab Prezident ölkənin bütün siyasi qüvvələrinə, siyasi partiyalarına xəbərdarlıq etdi. Cənab Prezidentin bu istiqamətdə çağırışları yeni deyildi. Ölkə başçısı daim bu barədə çıxış edib və bildirib ki, məmləkət məsələlərinin, daxili problemlərimizin həllini sərhədlərimizdən kənarda axtarmayaq. Bu cür çağırış dəfələrlə olub. Amma çox təəssüf olsun ki, xarici anti-Azərbaycan dairələrinin "beşinci kolon"u olmaq niyyətində olan qaragüruhçular "üç meymun" prinsipi ilə siyasət yürüdürlər. AXCP, "Milli Şura", Müsavat kimi dərnəklər xarici ölkələrin səfirliklərini gəzirlər, qrant və ianə üçün milli ideyamızı satışa çıxarırlar. Bütün bunlar açıq söylənilməlidir və tənqid edilməlidir. Axı, hansı səbəbə görə biz sabitliyimizi, stabil, dinamik inkişafımızı məcburən Suriya, Liviya, Yəmən, Misir, Tunis, Venesuela və Ukrayna "demokratiyasına" dəyişdirməliyik? Bir ölkənin sabitliyi və sakitliyi vardövlətdən də, milyardlarla vəsaitlərdən də vacibdir. Liviyanın, Misirin və Tunisin 50-100 milyard dollar, bəlkə də artıq pulları var idi. Bəs, həmin vəsaitlər indi haradadır? Məgər liviyalılar, misirlilər, tunislilər həmin vəsaiti gördülərmi, ölkələrinin yenidən qurulmasına sərf etdilərmi? Xeyr, etmədilər. Əksinə, hər gün yeni hərbi-siyasi oyunlarla həmin xalqları və dövlətləri məhv etdilər. Hər gün "demokratiya mahnısı" oxuyanlar cavab verə bilərlərmi ki, demokratiya adı altında dağılmış, Suriya, Liviya, Misir, Tunis, ərazisinin yarısını itirmiş Ukrayna nə qazandılar? İrəlidə onları hansı perspektiv gözləyir? Bax, bütün bunlara görə, nəyin bahasına olursa-olsun, sabitliyimizi qorumalıyıq. Demokratiya tədrici inkişaf prosesidir, o, idxal olunmur, təyin edilmir, quraşdırılmır. Buna görə də, xarici anti-Azərbaycan dairələrinin yeni "beşinci kolon"u olmağa çalışanlar, bir daha düşünsünlər ki, xalqın və dövlətin maraqları əleyhinə getmək xəyanətdir".

Sədaqət Vəliyeva diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin parlamentdəki çıxışı hər bir deputat və hər bir siyasətçi üçün fəaliyyət istiqaməti olmalıdır. Çünki dövlət başçısı prioritetləri də, əsas prinsipləri də, istiqamətləri də aydın şəkildə göstərdi.

# Müdrikliyi ilə seçilən Azərbaycan qadını cəmiyyətimizin tərəqqisində müstəsna rol oynayır

*Əgər bir cəmiyyətin sağlam düşüncəyə malik olmasını istəyirsənsə, həmin cəmiyyətdə böyüyən gənc nəslin sağlam tərbiyə olunması önəmlidir. Bu, təkcə sağlam vücudun olmasına dəlalət etmir, eyni zamanda, sağlam ruhun bütövlüyündə tamlığına varır. Qadının mövcudluğu, onun malik olduğu məziyyətlərin cəmiyyətin bütövləşməsində sərf olunması, gələcəyin aliliyinə gedən yolda təkan və özül olması, bu gün daha önəmlidir. Çünki qadın ədalət çarcısıdır, qadın təmizlik timsalıdır, qadın sülhün təminatçısıdır... Tarix sübut edir, zaman göstərir, real həyat isə nəticə çıxarmağa sövq edir. Hər bir fərdin özünü təsdiq etməsi üçün şərait mövcud olmalıdır və istənilən zəka sahibi yaradılan bu şəraitdən təkcə özünün deyil, cəmiyyətin inkişafına müsbət mənada töhfəsini verməyə borcludur. Əks-tədqirdə inkişafdan və gələcəkdən söhbət gedə bilməz. Nəzərə alsaq ki, bir fərdin inkişafı, gələcəyin təminatı deməkdir, bu baxımdan, bizlərin şansı yaradılan şəraitdən maksimim istifadə edib, bacardığımız sahədə üzərimizə düşən məsuliyyəti dərk edib, əmək sərf etməyimizdədir. Azərbaycan qadının xoşbəxtçiliyi də, məhz ondadır ki, hər zaman dəstəyi və öz potensialını göstərə biləcəyi şəraiti var...*



*Zəkiyyə MUSAYEVA,*
*Yeni Azərbaycan Partiyası Suraxanı rayon qadınlar şurasının sədri*

Müasir dünyamızda istənilən cəmiyyətin sürətli inkişafının təmin edilməsinin kökündə duran əsas məqamlardan biri tək güclü yox, həm də zərif cinsin nümayəndələrinin ictimai fəallıq dərəcəsindən və bunun üçün yaradılan şəraitdən, bilavasitə asılıdır. Bəşər tarixi sübut edir ki, tərəqqisində qadınların da rol oynadıqları cəmiyyətin inkişaf dərəcəsi daha sivilizasiyalı, modern, sürətli xarakterə malikdir. İradə və mərdliyi, saflığı və sədaqəti, zəka və müdrikliyi ilə seçilən Azərbaycan qadını tarix boyu cəmiyyətimizin milli-mənəvi dəyərlər sisteminin formalaşaraq inkişaf etməsində, eləcə də, ümumi tərəqqisində müstəsna rol oynayıb və oynamaqdadır. Bu mənada, təsadüfi deyil ki, zəngin bir keçmişə malik Azərbaycan xalqının tarixində adını qızıl hərflərlə əks etdirən qadınlarımızın sayı kifayət qədərdir. Azərbaycan qadınları tarix boyu torpaqlarımızın toxunulmazlığı, doğma el-obanın əmin-amanlığı, namusu və qeyrəti, dinimizin, adət-ənənələrimizin, mədəniyyətimizin, bir sözlə, dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda kişilərlə bərabər mübarizə aparmış, dünya tarixində hünər, cəsarət, qorxmazlıq, vətənpərvərlik, müdriklik nümunələri göstərmişlər. Tarixi qaynaqlarda Azərbaycan qadınının dövlətçiliyimizin qorunması işində iştirakına aid ilk məlumatlar hələ eramızdan əvvəlki dövrlərə aiddir. Yunan tarixçisi Herodotun məlumatına görə, e.ə. VI əsrdə qüdrətli Əhəməni imperiyasının hökmdarı Kir Şimali Azərbaycan ərazisində yaşayan massagetlərin torpaqlarını ələ keçirmək istərkən müxtəlif hiylə və vasitələrə əl atmış, lakin Massaget dövlətinin başında duran mərhum hökmdarın qadını Tomiris onun niyyətini başa düşərək, onu bu niyyətindən daşındırmağa çalışmışdı. Nəticədə, Kirin qoşunları tamamilə darmadağın edilmiş, Tomiris öz dövlətinin müstəqilliyini və ərazi bütövlüyünü qoruyub-saxlamışdı. Möminə xatunun yenilməz iradəsi, İnanc xanım, Mehrcan xanım ədaləti, Sara xatunun, Taclı, Pərixan xanım diplomatiyası, Tuti Bikənin, Bəyim xanımın sülhsevərliyi və bu günədək, şərəfli yolda öz adını həkk edən dəyanətli xanımlarımız. XIX əsrin görkəmli şərqşünası, Rusiyada şərqşünaslıq elminin banisi Mirzə Kazımbəy özünün "Bab və babilər" əsərində babilik təliminin qadına münasibəti məsələsi ilə əlaqədar yazırdı ki, istər Bab, istərsə də onun ardıcılları qadını onun düşdüyü fəlakətli vəziyyətdən qurtarmağa, onu cəmiyyətin bərabərhüquqlu üzvünə çevirməyə çalışırdılar. Bab öz "Bəyan"ında yazırdı: "Öz qızlarınızı sevin, oğlanlarınızla müqayisədə onların məqam və ləyaqətləri yaradan qarşısında daha yüksəkdir. Qadının azadlığı - insan nəslinin xoşbəxtliyidir".

Qeyd etmək lazımdır ki, adlarını çəkdiyimiz bu qadınlar, əsasən, islam dininin hakim olduğu, öz növbəsində, islamın cəmiyyətdə və ailədə qadınların hüququ, yeri və rolu ilə bağlı müddəalarının hakim sinfin və mürtəce ruhanilərin mənafeyinə uyğun olaraq, təhrif edildiyi, bir çox hallarda cəhalətin və nadanlığın hökm sürdüyü bir şəraitdə yaşamış və fəaliyyət göstərmişlər. Qadınlar kişilərə nisbətən bütün sahələrdə hüquqsuz vəziyyətdə olduqları bir halda, Azərbaycan tarixində belə mərd, cəsarətli, siyasətcil qadınlarımız yetişmişdi. Yaxın tariximizin və müasir dövrümüzdə də elinə-obasına yanan, ədaləti ilə öz sözünü deyən xanımlarımızın fədakarlığı da danılmazdır və fəxarət mənbəyimizdir.

Ulu Öndər Heydər Əliyev: "Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi, indi də cəmiyyətdə aparıcı rol oynayırlar". Ümummilli Liderin xalqın istək və iradəsinə uyğun olaraq, müstəqil Azərbaycana rəhbərlik etməsindən sonra digər sahələrlə yanaşı, qadın problemlərinin həlli istiqamətində də keyfiyyət etibarı ilə tamam yeni bir mərhələ başlandı. Zərif cinsin nümayəndələrinin üzləşdikləri çətinliklərin, problemlərin həllinə yenidən dövlət səviyyəsində diqqət və qayğı göstərilməyə başlandı, ölkədə formalaşan demokratik mühit yeni qadın birliklərinin və cəmiyyətlərinin yaranmasına təkan verdi, qadın hərəkatlarına bir ruh yüksəkliyi gətirdi. 1994-cü il sentyabrın 19-da Dahi Öndər Heydər Əliyev "Qadınların IV Ümumdünya Konfransına hazırlıqla əlaqədar Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında" Fərman imzaladı. Dövlət strukturlarının qadın rəhbərləri və qeyri-dövlət qadın təşkilatlarının nümayəndələrindən ibarət Milli Komitə tərəfindən bu ərəfədə qadınların cəmiyyətdəki statusunu artırmağa və cinslər arasında bərabərliyə nail olmağa yönəlmiş bir sıra tədbirlər - konfranslar, "dəyirmi masa"lar, müzakirələr və sərgilər təşkil olundu. Azərbaycan 1995-ci il iyunun 30-da Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına qoşularaq, öz üzərinə müvafiq öhdəliklər götürdü. Eyni zamanda, qadınların cəmiyyətin bərabərhüquqlu üzvü kimi yaradılan bütün imkanlardan istifadə etmələri, dövlət idarəçiliyində önə çəkilmələri, onlara qarşı diskriminasiyanın bütün formalarının aradan qaldırılması istiqamətində mükəmməl hüquqi baza formalaşdırıldı. Ulu Öndərin müəllifi olduğu müstəqil Azərbaycanın 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının ali hüquqi zəminini yaratdı. 1995-ci ildə BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvi" barədə Konvensiyasına qoşulmuşdu. Nəhayət, 1995-ci ilin sentyabr ayında da Pekində keçirilən IV Ümumdünya Qadın Konfransında Azərbaycan qadınlarından ibarət böyük nümayəndə heyəti iştirak etdi. Konfransda qadınların vəziyyətinin yaxşılaşdırılması sahəsində 12 strateji istiqamət müəyyən edildi. Pekin Konfransına ilk adekvat cavabı Azərbaycan verdi. Azərbaycanın sosial, siyasi və mənəvi inkişafında rolu artan qadınlar dövlət strukturlarında, parlamentdə, siyasi və ictimai təşkilatlarda geniş təmsil olunmağa başladılar. Ölkədə uğurla həyata keçirilən gender bərabərliyi siyasətinin hüquqi bazasının formalaşmasının davamı olaraq Heydər Əliyevin 1998-ci il yanvarın 14-də imzaladığı "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Sərəncamı, daha sonra "Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında", "Azərbaycan Respublikasında dövlət-qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmanları qadınların ictimai-siyasi həyatda iştirak və imkanlarının genişləndirilməsi sahəsində dövlət strategiyasının əsaslarının yaradılmasında mühüm rol oynadı. Davamlı olaraq milli qanunvericilik təkmilləşdirildi və gücləndi."Azərbaycanda qadınların rolunun artırılması", "Azərbaycan Respublikasında dövlət-qadın siyasətinin həyata keçirilməsi haqqında" verilən sərəncamlar qadınların istənilən sahədə fəaliyyət göstərməsi üçün münbit şərait yaratdı. Qadınların ictimai-siyasi fəaliyyətinin artırılmasında bu sənədlərin əhəmiyyəti çox böyükdür. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə, Cinayət Məcəlləsinə, Mülki Məcəlləyə, İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklər, "Gender bərabərliyinin təminatları", "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanunlarının qəbul edilməsi insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına təkan verməyə başladı. Bu gün Azərbaycanda Ümummilli Liderimiz Heydər Əliyevin milli dövlətçilik kursu uğurla davam etdirilir. Cənab İlham Əliyevin Prezidentliyi dövründə, həqiqətən, ölkəmizdə müsbət dəyişikliklər baş verib. Bu dəyişikliklər hər birimizin gözü önündə reallaşıb. Hər bir vətəndaşımızın rahat yaşaması üçün təmin olunan rifah bugünkü Azərbaycan reallığının ən mühüm nemətlərindən biridir. Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi də xalqa və dövlətə sədaqətli və layiqli xidmət prinsipi üzərində qurulub. Bu yeniləşmə dövlət qadın siyasətindən də yan keçməyib. Ölkəmizdə insan hüquq və azadlıqlarının, onların tərkib hissəsi kimi gender bərabərliyinin təmin edilməsi daim Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Ulu Öndərin yolunu yeni meyarlarla zənginləşdirərək, yüksək səviyyədə davam etdirən Prezident İlham Əliyev dövlət-qadın siyasətinin daha böyük nailiyyətlərlə icrasını təmin edir. Onun rəhbərliyi ilə yeni siyasi və iqtisadi sistem qurulub, sürətlə inkişaf edərək, bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklərə imza atdı. Tarixin istənilən anında bizim örnək kimi qəbul etdiyimiz qadınlar olub və indi də vardır. Bu gün Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın şəxsində qadınlarımız dünya səviyyəsində öz sözünü deyir. Şərq və Qərb xüsusiyyətlərini özündə cəmləşdirən, milli dəyərlərimizin və mədəniyyətimizin təbliğatçısı, Azərbaycan adət-ənənələrinin qoruyucusu, ümummilli problemlərimizin dünya müstəvisinə çıxarılmasında əvəzsiz xidmətləri olan Mehriban xanım Əliyevanın obrazı Azərbaycan qadınlarının dünyabaxışında və gələcəyində mühüm rol oynayır. Ölkəmizdə keçirilən Azərbaycan Qadınlarının Qurultayları ölkədə qadın hərəkatının fəallaşmasının təsdiqidir. Azərbaycanda fəaliyyətdə olan ailə, qadın-uşaq yönümlü QHT-lər respublikada formalaşan vətəndaş cəmiyyətinin çox mühüm tərkib hissəsidir. Qadınların ictimai aktivliyi ilə yanaşı, onların siyasətdə iştirakçılığı da artmaqdadır. Hazırda minlərlə qadın müxtəlif partiyaların sıravi və ya Siyasi Şurasının üzvü kimi fəaliyyət göstərir. Onların arasında tanınmış elm, mədəniyyət və incəsənət xadimləri, iqtisadiyyat və digər sahələrdə çalışan qadınlar vardır. Siyasi partiyalarda və qeyri-hökumət təşkilatlarında fəaliyyət göstərən, rəhbər vəzifələrdə çalışan qadınların da sayının artması çox mühüm nailiyyətdir. Azərbaycan dövləti tərəfindən həyata keçirilən gender siyasətinin mahiyyətində qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılması dayanır. XX əsrdə dünyada gedən qlobal ictimai-siyasi proseslər və beynəlxalq qadın hərəkatının yeni mərhələyə qədəm qoyması Azərbaycan qadınlarından da böyük fəallıq tələb edir. Bu gün dünyada gedən insan hüquqları məsələlərinin təhlili, gender bərabərliyi mövzusunda müzakirələrin ən gözəl cavabı və müsbət nümunəsi ölkəmizdə həyata keçirilən dövlət siyasəti və son təyinatlardır. Məhz bu baxımından, yaradılan şərait və güvən daha güclü Azərbaycan naminə düşüncələrimizi, enerji və niyyətlərimizi, əməli fəaliyyətimizdə təsdiqi üçün zəmindir və uğurlu gələcəyə gedən yolunun təminatıdır.

# İmmuniteti olmayan erməni əsgərinin müqaviməti də olmaz

***Ermənistan ordusunda koronavirusun yayılması faktı işğalçı ölkədə gizlədilsə də, bu barədə məlumatlar qonşu ölkələrin belə mətbuat səhifələrində öz əksini tapır. Xüsusilə, Gürcüstana məxsus media orqanı qoşunların təmas xəttindəki mənbələrinə istinadən bu barədə açıq-aşkar məlumatlar yayır və bu məlumatlarda bildirilir ki, Ermənistan ordusunun şəxsi heyətində koronavirus infeksiyası var və bu infeksiya sürətlə yayılır.***



İnfeksiyanın işğalçı ölkənin ordu sıralarında kütləvi hal aldığı da qeyd olunur. Bildirilir ki, bu halların əvvəlcə sıradan bir xəstəlik olduğu qənəati var idisə də, sonradan bəlli olub ki, heç də düşünüldüyü kimi deyil. Artıq müəyyən olunub ki, həqiqətən də, Ermənistan ordusunda koronavirus infeksiyası movcuddur və bu infeksiya orduda sürətlə yayılır. Doğrudur, yoluxma faktları gizlədilir və ciddi şəkildə bu məlumatların qorunmasına nəzarət edilir. Amma cidanı çuvalda gizlətmək olmadığı kimi, Paşinyan hakimiyyəti də bu məsələni uzun müddət nəzarətdə saxlaya bilməyəcək.

Əslində, Ermənistan hakimiyyəti orduda yeni koronavirusa yoluxma hadisəsi ilə mübarizə aparmaq əvəzinə, bu məsələnin məxfiliyini qorumaqla heç nəyə nail ola bilməz. Onsuz da Ermənistan ordusunda xəstəliklərin baş alıb getməsi, antisanitariya vəziyyəti, ermənilərin çaxnaşmada olması birinci dəfə deyil və ordu sıralarındakı çatışmazlıqlar işğalçı ölkə üçün xarakterikdir. Biz bundan əvvəl Ermənistan ordusunda fərariliyin, intihar hallarının, ölümlə nəticələnin qarşıdurmaların, intriqaların, müxtəlif növ xəstəliklərin və sair bu kimi halların şahidi olmuşuq. Bu baxımdan, Paşinyanın və onun hakimiyyətinin, komandasının bu məqamda virusa yoluxma faktlarını gizlətməsinin heç bir mənası yoxdur.

Paşinyan və ümumilikdə, Ermənistan hakimiyyəti faktları nə qədər gizlətsə də, dünyanın istənilən ölkəsində, istənilən yerində az qala hamı bilir ki, işğalçı ölkənin ordusu və əsgəri acınacaqlı vəziyyətdədir. Dünyanın bir sıra hərbi ekspertləri bu ölkədə hərbi xidmətdə olan əsgərin qidalanmasında, geyimində, xidmət şəraitində problemlərin olduğunu qeyd edirlər. Məsələn, bildirilir ki, erməni əsgərlər cırılmış, köhnə, nimdaş paltarlardadır. Qeyd olunur ki, belə bir vəziyyətdə olan əsgərə dünyanın heç bir yerində rast gəlinə bilməz. Ümumiyyətlə, aclıq, geyim çatışmazlığı hökm sürən ordu sıralarında xidmət edən əsgərlərin psixoloji durumundan tutmuş, sağlamlığına qədər şübhə altında olduğu bildirilir ki, bu da, həmin ölkənin ordu sıralarında istənilən infeksiyanın, istənilən xəstəliyin əmələ gəlməsi, yayılması üçün münbit şərait deməkdir.

Təmas xəttində olan mənbənin məlumatına görə, burada qısa bir zaman fasiləsində, Ermənistan çoxlu sayda xəstə əsgəri tibbi



nəqliyyat vasitələri ilə hərbi hissədən çıxarılıb. Onun sözlərinə əsasən, martın 5-i saat 9:00 radələrindən 13:00 radələrinə qədər olan qısa fasilədə Ağdam və Tərtər rayonları arasındakı ön cəbhədə, xüsusilə, Ağdamda 2 hərbi-tibbi nəqliyyat vasitəsi əsgərləri 14 dəfə, Tərtərdə isə 3 hərbi-tibbi nəqliyyat vasitəsi xəstələri 9 dəfə hərbi hissədən çıxarıb. Bu isə, o deməkdir ki, nə qədər gizlədilsə belə, infeksiya Ermənistan ordusunda artıq kütləvi xarakter alıb. Yeni hərbi-tibbi nəqliyyat vasitələrinin cəmi bir neçə saat ərzində bu qədər sayda əsgər daşıması ciddi bir statistik göstəricidir ki, bu işğalçı ölkədə əməlli-başlı həyəcan siqnalına səbəb olmalıdır. Əslində, Nikol Paşinyanın son günlərdə özünün Facebook səhifəsində canlı yayımda hamını sanitariya-gigiyena qaydalarına riayət etməyə, bir-birilərilə əllə görüşməməyə, təmasdan çəkinməyə çağırışı özü bir həyəcan siqnalıdır, baxmayaraq ki, o, bu həyəcanı gizlətməyə çalışır.

Mənbə erməni əsgərlərinin Ağdərə və Xankəndidəki xəstəxanalara aparıldığını qeyd edir. Halbuki bu barədə dırnaqarası "demokratiya" və "azadlıq carçısı" olan küçə nümayişçisi Paşinyan susur. Nə Nikol, nə də onun komandası olan Ermənistan hakimiyyəti bu barədə bir xəbər belə vermək istəmir öz həmvətənlərinə. "Yoxsa ictimaiyyətin halı onu zərrə qədər maraqlandırmır" deyə bu səssizliyə və saymazlığa da əl atmağı özünə rəva bilir? Axı, orduda xidmət edən əsgərlər onu küçələrdən hakimiyyətə çiyinlərində gətirənlərin balalarıdır və indi erməni baş naziri niyə onların vəziyyətinə saymazlıqla yanaşır? Budurmu onun erməni xalqını düşünməsi? Yaxud küçələrdən hakimiyyətə hövlanak gələrək, "işıqlı gələcək", "qızıl dağlar" vədən edən Paşinyan bunu nəzərdə tuturdumu? Soruşmaq ayıb olmasın, hardan peyda olduğu bilinməyən bu küçə nümayişçisi hakimiyyəti qamarlamaq üçün istifadə etdiyi "sehrli çubuğu" niyə işə salmır?



Təmas xəttindki mənbənin məlumatına görə, hərbi hissələrdən tibbi müəssisələrə aparılan xəstələr halsızlıq, titrətmə və yüksk hərarətdən şikayətlənirlər. Bu isə, onu deməyə əsas verir ki, hələ daha çox erməni əsgərinin sözügedən virusa yoluxduğunu düşünməkdə hər kəs haqlıdır. Axı hərbi hissələrdən çıxarılan həmin xəstələr bu vaxtadək öz xidməti yerlərində yoldaşları ilə yaxın təmasda olublar və onların da bu simptomlarla xəstəxanalara daşınmayacağına kimsə zəmanət verə bilməz. Heç o daşınan xəstələrin də sağalacağına belə zəmanət vermək əzmində deyil Ermənistan. Ümumdünya Səhiyyə Təşkilatı da bu qənaətdədir və bildirilir ki, Ermənistan bu infeksiya ilə mübarizədə acizdir. Bu barədə işğalçı ölkəyə məxsus olan "Hraparak" qəzeti də yazır. Qəzet yazır ki, bir neçə gündür ki, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri Ermənistandadır və onlar Ermənistanın koronavirusa tab gətirməyə hazır olub-olmadığını müəyyən etmək üçün böyük xəstəxanaları izləyirlər. Nəşrin müxbiri xəstəxanalardan birinin məsul şəxsindən "Nə nəticəyə gəldilər, deyə soruşub. "Xəstəliyin öhdəsindən gələ bilinməyəcəyi qənaətinə gəliblər və həqiqətən də, ÜST-in köməyi olmadan müqavimət göstərə bilmərik" deyə xəstəxananın məsul şəxsi cavab verib. Daha doğrusu, Ermənistana məxsus xəstəxananın məsul şəxsi açıq-aşkar etiraf edib bunu.

Hadisələrin gedişi Ermənistan üçün tamam acınacaqlı proqnozlar vəd edir. Bunu yerli vətəndaşlar da çox gözəl dərk edir. Hərbi xidmətə olan diqqətsizlikdən bütün ermənilər şikayətçidirlər. Hət-



ta bütün dünya ictimaiyyəti şahiddir ki, ölən əsgər anaları vaxtaşırı hakimiyyətə qarşı aksiya keçirir və tələblərlə çıxış edir. Doğrudur, onlar hökumətdən kompensasiya tələb etsə də, məqsəd əsgərə olan qayğını tələb etməkdir. Çünki onlar küçədə adi atışma nəticəsində ölənlərə belə ayrılan diqqətin əsgərlərə ayrılmadığından narazıdırlar. Bu həm də, hazırda Ermənistanın ordu sıralarında hərbi xidmətdə olanlara görə ermənilərin keçirdiyi narahatlıqdır ki, bu narahatlıqda da onlar, həqiqətən, haqlıdırlar. Çünki erməni hakimiyyəti, xüsusən də, Paşinyan komandası əsgəri acınacaqlı duruma salıb.

Dəfələrlə mütəxəssislər, həkimlər tərəfindən qeyd olunduğu kimi koronavirus immun sistemi zəif olan insanlara daha tez yoluxur və xəstəlik özünü daha kəskin şəkildə büruzə verir, hansı ki, ermənilər özləri də bunun ordu sıralarında şahidi oldular. Şahidi oldular ki, ac-susuz, paltarsız əsgərlərdə, gigiyena qaydalarına və sair şərtlərə əməl olunmayan Ermənistan hərbisində bu öz təsdiqini necə tapdı. Ermənilər özləri də əmin oldular ki, nəinki koronavirus, ümumiyyətlə, istənilən xəstəliklə mübarizədə erməni əsgərinin immuniteti yoxdur. Maraqlıdır, adi bir qrip infeksiyasına immuniteti olmayan erməni əsgərinin sərhəddə, təmas xəttində qarşı tərəfə hansı müqaviməti ola bilər? Təbii ki, erməni əsgərinin, Ermənistanın hərbisinin müqavimətindən söhbət belə gedə bilməz və bu, özü də onu deməyə əsas verir ki, işğalçı ölkənin hərbisi də, apardığı işğalçılıq siyasəti də artıq öz məntiqi sonluğuna yaxınlaşıb.

**İnam HACIYEV**

# “Bu, təxribatdır, Ermənistan Rusiyanın əli ilə bizi vurmaq istəyir”




***“Ermənilər hazırda təxribata hazırlaşırlar. Onlar bizi Rusiyanın əli ilə vurmaq istəyirlər”. Bu sözləri SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiya Mərkəzinin rəhbəri, siyasi ekspert Mübariz Əhmədoğlu son vaxtlar Ermənistanın Azərbaycan ilə olan dövlət sərhəd xəttində atəşkəsi müxtəlif mövqelərdən tez-tez pozmağa cəhd etməsini şərh edərkən deyib.***

O bildirib ki, Ermənistanın bu cəhdləri son dövrlərdə baş verən iki əsas hadisə ilə bağlıdır: “Ötən ayın sonlarında İrəvanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) iclas keçirdi. Həmin iclasda Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin KTMT-ni Ermənistanın, hətta Dağlıq Qarabağ məsələsində “təhlükəsizlik yastığı” adlandırdı. Vəziyyəti izlədiyim müddət ərzində deyə bilərəm ki, Rusiya səfirindən, ümumiyyətlə Rusiya diplomatlarından belə bir ifadəni ilk dəfə idi ki, eşidirdim. Həmişə Rusiya, ümumiyyətlə KTMT Dağlıq Qarabağ məsələsindən özünü kənarda saxlayıb. KTMT özü Ermənistanın təhlükəsizliyinə hər cür zəmanət verib. Lakin, Dağlıq Qarabağ məsələsində özünü həmişə kənarda saxlayıb. İlk dəfə idi ki, səfir Sergey Kopırkin belə bir bəyanatla çıxış edirdi”.

Politoloq Ermənistanın sərhəd xəttindəki təxribatlarına ikinci səbəb kimi isə Türkiyə və Rusiya arasındakı siyasi gərginliyi misal gətirib: “İkinci səbəb isə elə yaxın zamanlarda baş verən prosesləri əhatə edir. Rusiya ilə Türkiyə arasında İdlib, Suriyada vəziyyətin gərginləşməsidir. Ermənilər Azərbaycan-Ermənistan dövlət sərhədində həm Qazax istiqamətində, həm də Naxçıvan istiqamətində vəziyyəti gərginləşdirməyə çalışırlar və bura Rusiyanı cəlb etmək istəyirlər ki, Rusiya Azərbaycana hər hansı bir tərzdə reaksiya göstərsin. Ermənistan tərəfinə görə, güya, Azərbaycan Türkiyə ilə birləşib Dağlıq Qarabağda müharibə edə bilər və güya bunun da əlaməti olaraq Azərbaycan sərhəddə təxribat törədir. Təbii ki, bununla əlaqədar bizim hərbi cavablarımız yerindədir və ermənilərin təxribatlarını neytrallaşdırır. Düşünürəm ki, eyni zamanda siyasi cavablarımız da yerində olmalıdır ki, biz bir daha erməniləri yerində oturtaq”.

Mübariz Əhmədoğlu qeyd edib ki, bir sözlə Ermənistan təxribata hazırlaşır və onların təxribata hazırlaşdıqlarının əlamətləri açıqca görünür: “Biz sadəcə bu təxribatlara cavab verməliyik. Biz siyasi cavabımızla onların təxribatlarının qarşısını almalıyıq. Çünki, bu dəfə onlar bizi Rusiyanın əli vurmağa çalışırlar”.

# “DST koronavirusun yayılmasının qarşısını almaq üçün Azərbaycanda görülən tədbirləri təqdir edir”

***Dünya Səhiyyə Təşkilatının (DST) saytında qurumun ekspertlərindən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri barədə məlumat yerləşdirilib. AZƏRTAC xəbər verir ki, məlumatda ölkəmizin koronavirusun yayılmasının qarşısının alınması istiqamətində həyata keçirdiyi tədbirlər, eləcə də DST ilə əməkdaşlığı təqdir olunur. Missiyanın məlumatında bildirilir ki, Azərbaycan COVID-19 infeksiyasının geniş yayıldığı İranla həmsərhəd olsa da, öz ərazisini virusun yayılmasından etibarlı qorumağı bacarır.***

Məlumatda Azərbaycanın DST-nin yeni koronavirusun yayılmasının qarşısını almaq üçün ən qabaqcıl laboratoriya dəstlərini alan 17 ölkədən biri olduğu da bildirilir. Dünya Səhiyyə Təşkilatının nümayəndə heyətinin Azərbaycana martın 9-dan 13-dək davam edən 5 günlük səfəri çərçivəsində ekspertlər Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) təmsilçiləri ilə respublika və regional səviyyəli xəstəxanalara, həmçinin Qida Təhlükəsizliyi Agentliyinin laboratoriyalarına, Azərbaycan Tibb Universitetinə və sərhəd keçid məntəqələrinə baş çəkib, ölkədə koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üzrə profilaktik tədbirlərlə tanış olublar.

Məlumatda, həmçinin Azərbaycan hökumətinin qonşu ölkələrlə əlaqəli şəkildə COVID-19 virusunun dünyada yayılması riskinin qarşısının alınması istiqamətində beynəlxalq birliyin səylərinə töhfə məqsədilə DST-nin “Strateji Hazırlıq və Cavab Planı” çərçivəsində “COVID-19 müraciəti” Fonduna 5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə yardımının verilməsi barədə qərar qəbul etdiyi də bildirilir və bu qərar DST tərəfindən təqdir edilir.

Azərbaycan Respublikası və Dünya Səhiyyə Təşkilatı (DST) arasında uzunmüddətli səmərəli əməkdaşlıq münasibətləri mövcuddur. Azərbaycan Respublikası DST-nin qlobal miqyasda COVID-19 virusuna qarşı mübarizə səylərini yüksək qiymətləndirir. DST-nin COVID-19 virusu ilə bağlı tövsiyələri Azərbaycan tərəfindən nəzərə alınır və tətbiq olunur.

## Səudiyyə Ərəbistanı otellərdə toy və şənliklərin keçirilməsini qadağan edib



Səudiyyə Ərəbistanında otellərdə, mərasim zallarında toyların və digər şənliklərin keçirilməsini qadağan edilib. AZƏRTAC xəbər verir ki, Krallığın Daxili İşlər Nazirliyi bununla əlaqədar məlumat yayıb. Qeyd olunub ki, hökumətin qərarı ölkədə koronavirusun yayılmasının qarşısını almaq məqsədi daşıyır.

Nazirlik bütün vətəndaşları həmin qərara uyğun davranmağa, COVID-19 virusuna qarşı mübarizədə həmrəylik nümayiş etdirməyə çağırıb. Səudiyyə Ərəbistanı Səhiyyə Nazirliyinin son məlumatına görə, ölkədə daha 17 nəfərdə koronavirus aşkar edilib. Onlardan altısı yerli sakinlər, on biri isə Misir vətəndaşlarıdır. Misirli xəstələr Məkkə şəhərində karantin altına alınıblar. Beləliklə, ölkədə virusa yoluxanların sayı 62-yə çatıb.

# Mədəni tarixi abidələrimizin təbliği

Qafqaz Albaniyası dövrünə aid edilən abidə, Azıx mağarası, Diribaba türbəsi və digərləri haqqında şagirdlərə məlumat verildi.





***Gənclər Fondunun maliyyə dəstəyilə “Mədəni tarixi abidələrimizin təbliği” adlı layihə çərçivəsində Suraxanı “Gənclər Evi”ndə 40 nəfər şagird və 10 müəllimin və digər nümayəndələrin iştirakıyla tədbir keçirilib. Tədbirdə bu sahə üzrə mütəxəssis QHT sədri Faiq İsmayılov tədbirə dəvət olunmuşdu.***

Tədbiri Suraxanı gənclər idman idarəsinin rəisi Amil Bağırov açaraq, dövlətin gənclər siyasətindən və əsas məqsəd gənclərimizin vətənpərvər ruhda, dövlətə, millətə layiqli vətəndaş kimi böyüməsinə və milli sərvətlərə sahib çıxmasından danışıb.

Layihə rəhbəri Bəxtimşah Tağıyeva bu layihənin fərdi layihə kimi gənc üzvümüzün Şəms Tağıyevaya verilməsinin fondun və dövlətin gənclərə verdiyi önəmi olduğunu bildirdi. Sonra Azərbyacanın abidələri haqqında məlumat verdi.

Azərbyacanın ən qədim abidələri daş abidələrdir ki, daşdan oyma, yonma, cızma üsulu ilə hazırlanıb, Ordubad (Gəmiqaya), Abşeron (Mərdəkan, Şüvəlan) və Qobustan qayaları üzərində rast gəlinir.

Bakının Bayıl qəsəbəsi yaxınlığında yerləşən hazırda dənizin suları altında qalan XIII əsrdə tikilmiş Bayıl qəsridir. Qala divarları Şərqdə altı, Qərbdə beş yarımdairəvi bürclə möhkəmləndirilmişdir. 1306-cı ildə dənizdə baş verən güclü zəlzələdən dənizdə batmışdır.

Tədbirdə Qız Qalası, Şirvanşahlar Sarayı, “Atəşgah”, Ramana qalası, Mərdəkan qalası, Qobustan, Ağaoğlan qəsr kompleksi, Əlincə Qalası, Mömünə Xatun Türbəsi, Şamaxı Qalası, Koroğlu Qalası, Əsgəran Qalası, Cavanşir Qalası, Gülüstan Qalası, Çıraqqala, Xocalı rayonunun Çanaxçı kəndindəki məbəd, Xocalı rayonunun Dağyurdu kəndindəki

Abidələr sahəsində mütəxəssis, QHT sədri Faiq İsmayılov işğal altında olan Alban abidələrindən, hazırda formasının ermənilər tərəfindən necə dəyişdirilməsindən və erməniləşdirilməsindən danışdı, erməni vandalizmini pislədi. Faiq İsmayılov slaytlarla şagirdlərə abidələri göstərdi.

Sonda tədbir iştirakçılarına çay-kofe və şirniyyat süfrəsi açıldı.

***Bəxtimşah***

# Satqınların son aqibəti belə olmalıdır!

## *AXCP-Müsavat savaşı - haraya qədər?*

***Seçkilər ərəfəsində AXCP və Müsavat partiyaları arasındakı qarşıdurmalara müəyyən pauza verilsə də, seçkidən sonra acınacaqlı vəziyyət yenidən alovlanmağa başlayıb. Nə vaxta kimi? Nə istəyirlər? Köhnəlmiş, çeynənmiş "maddiyatlar"da olmaqla, nəyi sübut etmək istəyirlər? Bir də sübut etməyə nə var ki... Hər iki dağıdıcı xislətli partiyaların bir-birlərini qəbul etmələri arxasında dayanan köklü səbəblər yenə də "ana müxalifət"çilik, "liderlik" iddiaları. Necə deyərlər: boş çanağı dolu çanağa vurmaqla nə əldə olunub ki, bundan sonra da, nə əldə oluna? Halbuki ictimai rəy nə Müsavatı, nə də AXCP-ni, nəinki "ana müxalifət", heç normal müxalifət partiyaları kimi də qəbul etmir, onda ola "liderlik".***

### Qabil Hüseynli: "AXCP-Müsavat uzun illər kiçilə-kiçilə bu günümüzə gəlib çatıblar"

Politoloq Qabil Hüseynli Müsavat və AXCP arasında yaşanan gərginliyin səbəbini müxalifət funksionerlərinin qarşılıqlı ittihamlarında gördüyünü bildirib: "Bu, çox ciddi surətdə müxalifətin indiyə qədər uğur qazanmamasının səbəblərini göstərən amillərdən biridir. Hər dəfə də siyasi liderlərin barışmaz münasibətləri, ölçüsüz ambisiyaları, güzəştə getmək mədəniyyətlərinin olmaması, nəticə etibarilə, təşkilatların bir-biri ilə çətinliklə əldə edilmiş siyasi inteqrasiyasını dağıdıb. Arada itirən isə müxalifət partiyalarının sıravi üzvləri olur. Demokratik proseslərin inkişafı ilə bağlı problemlər meydana gəlir. Mən sıravi üzvləri qınayıram ki, onlar dəfələrlə bu cür hərəkət edən liderləri haqqında ölçü götürmürlər. Partiya üzvlərinin səlahiyyəti var ki, baş verən hadisələr haqqında öz liderlərindən ətraflı izahat alsınlar. Bu izahatlar üzvləri təmin etmədikdə, fövqəladə qurultay çağırıb, onları idarə edənləri təşkilati formada cəzalandıra bilərlər. Lakin təəssüf ki, bütün bunlar baş vermir. Aşağı partiya təşkilatlarına daxil olan sıravilər liderlərin ağzından çıxanları az qala müqəddəs kəlam kimi qəbul edir, onların arxasınca gedirlər. İndiyə qədər 26 ildən artıq müddətdə baş verən məğlubiyyətə görə də heç kim cavabdehlik daşımaq istəmir. Ümumiyyətlə, ötən müddətdə müxalifət çox şey itirib. Ən əsası, müxalifət xalqdan uzaq düşüb və xalq onlara inanmır. Müxalifətin elektoral bazası çox ciddi surətdə daralıb. Bütün bunların səbəbi siyasi liderlərin bu cür ambisioz hərəkətlərində, xalqa vəd verib onu yerinə yetirməməkdə, xalq qarşısında məsuliyyət daşıyıb-daşımamalarını dərk edə bilməmələrindədir".

Q.Hüseynli bu hadisələr fonunda "Milli Şura" ilə bağlı fikirlərini açıqlayarkən, bildirib ki, ölü qurumun yenidən dirçəlməsi çox gülüncdür: "Çünki "Milli Şura"nı dirçəltmək üçün oraya yeni-yeni siyasi partiyaları qəbul etmək, xalqın inamını bərpa eləmək lazımdır. Bunların heç biri mümkün deyil. Misal üçün, ALP ilə yenidən danışıqlara başlasalar da, ortada heç bir nəticə yoxdur. Lap elə ALP ora gəlsə, nə dəyişəcək ki? Zəif və elektoral bazası olmayan bu cür kiçik partiya ilə ciddi irəliləyiş əldə etmək mümkün deyil. Hazırda "Milli Şura"nın ayaq üstə durması üçün ən mühüm məsələ xalq ilə körpülərin qurulması, vətəndaşların etimadının qazanılmasıdır ki, bu da, çox ciddi şəkildə sarsılıb. Bu mənada, "Milli Şura" ideyası artıq iflasa uğrayıb".

### Müxalifətə başqa düşmən lazım deyil...

Q.Hüseynli partiyalararası qarşıdurmaya münasibət bildirərkən vurğulayıb ki, əslində, müxalifətə başqa bir düşmən lazım deyil: "Çünki düşərgə təmsilçiləri özləri özlərinə ən ağır zərbəni endirirlər. Müxalifətin içində elələri var ki, onlar öz əməllərilə düşərgəyə daha çox zərbə vururlar. Dağıdıcı müxalifət partiyaları daxilində ciddi siyasi fikir ayrılıqlarından yaranan parçalanmalar, kütləvi istefalar baş verir. Partiyalar yeniləşmədən, partiya liderləri öz postlarına yeni baxışlı, siyasi dünyagörüşlü şəxslər yetişdirmədən prosesləri irəliyə doğru aparmaqda ciddi çətinliklərlə üzləşəcəklər".

Bəli, satqınların sonu, aqibəti belə olmalıdır. Ə.Kərimli, İ.qəmbər, A.Hacılı, C.Həsənli və onların ətrafındakılar satqın və mənəviyyatsızların mayası ilə mayalananlardır.

Beləliklə, Müsavat-AXCP siyasi arenada uğursuz yolun sonuna çoxdan gəlib. Satqınların son aqibəti belə olmalıdır!

***Rəfiqə HÜSEYNOVA***

---

# Əli Kərimli, öz övladlarına da bunu rəva görərdinmi?

## *Və ya "feminist hərəkatı" adı altında əxlaqsızlıq nümunəsi*

***Martın 8-də özlərini "feminist" adlandıran, əslində isə, əxlaqsızlığı təbliğ edən şüarları ilə ictimai rəydə hiddət doğuran bir qrup təxribatçının dərhal AXCP sədri Əli Kərimli tərəfindən dəstəklənməsi bu gün də günün mövzusu olaraq qalmaqdadır. Hətta sosial şəbəkələrdə Ə.Kərimlinin statusları, nəinki pislənir, eyni zamanda, lənətlənir. Misal üçün, bu gün ona çoxsaylı suallar ünvanlanır və əlbəttə ki, həmin suallar cavabsız qalır.***



### Əli Kərimli və ətrafı yalnız əxlaqsızlar yığnağıdır

Daha bir əsas məsələ ondan ibarətdir ki, Ə.Kərimli həyatlarını zəhərlədiyi, onları bu yola zorla itələdiyi, sözün əsl mənasında, əxlaqsızlıq virusuna yoluxdurduğu gəncləri "qeyrətli", "namuslu" adlandırdı, onlarla fəxr etdiyini dedi və dəstəyini ifadə etdi (?!-R.R.). Görünür, AXCP sədri illərdən bəri ancaq və ancaq əxlaqsızlığı və tərbiyəsizliyi təbliğ edənləri dəstəkləyir. Əgər belə olmasa idi, uzun illər AXCP-nin kuluarlarında, "Azadlıq" qəzetinin redaksiyasında bu gün də dillərdə əzbər olan və günaşırı baş verən əxlaqsızlıq olayları yaşanmaz və ictimailəşdirilməzdi! Yəni bu faktların özü də sübut edir ki, Ə.Kərimli və ətrafı yalnız əxlaqsızlar yığnağıdırlar və bu cür rədd edilən məsələlərlə "siyasət yürüdürlər".

### İctimaiyyət hələ də bu sualın cavabını gözləyir, cürəti varsa, buyursun cavab versin!

Lakin onların üzünə bu rüsvayçılıqlar vurulanda və tənqid ediləndə, dərhal sözün düzünü deyənlər təhqir edilir, hətta linç olunacaqları ilə təhdidlərə də məruz qalırlar. Ona görə də, bu gün AXCP sədrinə sual edəndə ki: "Əli Kərimli, Azərbaycan gəncliyinə sırımağa çalışdığın bu cür əxlaqsızlığı, tərbiyəsizliyi öz övladlarına da rəva görürsənmi?"

Söz yox ki, o, bu sualı ya cavabsız qoyacaq, ya da nala-mıxa vurub söhbəti başqa səmtə yönəltməyə cəhdlər göstərəcək. Halbuki fakt göz önündədir. Beləliklə, ictimaiyyət hələ də bu sualın cavabını gözləyir, cürəti varsa, buyursun cavab versin!

***Rövşən RƏSULOV***

---



**RƏFİQƏ**

# Elə onlar düzəlməsələr yaxşıdır

Deyir bu siyasət deyilən məsələ elə bir şeydir ki, həqiqətən də, onun nə dalı, nə də ki, qabağı görünmür. Xüsusilə, bu amil özünü, adətən, seçkilərdən sonra daha çox görünür. Bütün bunlara baxmayaraq, vaxtilə normal siyasət deyilən bir amili bu gün çox pis vəziyyətə salanlar olmasaydı, siyasət elə normal siyasət kimi də qalacaqdı. Yaxşı, bəs siyasəti bu hala salanlar kimlərdir? İlk öncə, iqtidar tərəfdə belə şeylərin olmadığını da deməliyəm. Çünki iqtidar çox şükür ki, 27 ildən artıq müddət ərzində öz dəyişilməz, monolit və təməlli siyasətini aparır. Ona görə də, siyasətin bu tərəfi barədə hər hansı bir mübaliğə aparmaq da lazım deyil və faktlar da bunu göstərir.

Ancaq iqtidardan fərqli olaraq, müxalifət tərəfi, ümumiyyətlə, siyasətin nə olduğunu qanmamaqla yanaşı, heç özünü də doğru-dürüst apara bilmir və siyasətin nə olduğunu, ümumiyyətlə, qanıb-qandırmır. Bilirsiniz niyə? Çünki onların siyasətlərini özləri deyil, məhz başqaları yürüdür! Belələrinə isə siyasətçi yox, siyasətbaz deyilir. Diqqət yetirsək, onu da görərik ki, müxalifət siyasətbazları arasında hər cür fərdlərə rast gəlmək mümkündür. Boş-boş vədlər verən, uydurma, həqiqətə uyğun olmayan, boğazdan yuxarı çıxışlarla lazımsız dividend qazanmağa çalışan, keçmişi olmayan, bu günü müəmmalı, sabahı isə görünməyənlərə bu müxalifətdə çox rast gəlmək olur. Ancaq nə fərqi var ki? Bütün bu kimi hallara baxmayaraq, həmin siyasətbazlar özlərini cəmiyyətə tam fərqli formada təqdim etməyə, yəni əslində, olduqlarından fərqli görünməyə can atırlar. Bu tip siyasətbazların iddiaları isə reallıqla heç cür üst-üstə düşmür və belə davam edəcəksə, heç düşməyəcək də. Çünki onlar potensiallarını düzgün qiymətləndirmədən daim qədərindən artığına yiyələnməyə çalışırlar. Elə AXCP sədri Ə.Kərimli, Müsavatın sabiq başqanı İ.Qəmbər, Müsavat başqanı A.Hacılı, "Milli Şura" sədri C.Həsənli və... bu dəllallar və onların yan-yörələrində olan o oyunbazlar bütün oyunlardan çıxmağı bacarırlar. Hələ "cırtdan" partiyaların sədrciklərini demirəm. Onlar danışanda, adam lap mat-məəttəl qalır. Deyirsən ki, buna dağ versən, dağı ikicə dəqiqənin içində "yıxıb-qoyar böyrü üstdə". Məsələn, VAMBP sədri Hacıbaba Əzimov, "Azadlıq" partiyasının sədri Əhməd Oruc, AXP sədri Pəhan Hüseyn və nə qədər belə tör-töküntülər var, danışanda şəxsən məni az qalır xof tutsun. Hətta bəzi hallarda gecələr gözümə yuxu-zad da gəlmir. Qardaş, bir də görürsən ki, "cırtdan" partiyanın sədri elə "nəhəng" bəyanatlar verir, elə "ciddi" fikirlər irəli sürür ki, düşünürsən və deyirsən, belə getsə, bunlar "vot-vot" akula müxalifətçiləri də hop edib, iqtidara gəlmək ərəfəsindədirlər. Daha onlara deyən yoxdur ki, ay filankəs... sənin ətin nədir, budun nə?! Sən hara, siyasət hara...Yəni onların əsas amalı siyasətlə-filanla məşğul olmaq yox, məhz daha çox gəlir əldə etmək, qrantdan-filandan qazanıb cibişdana ötürməkdir.

İndi, bu siyasətbazlar ömürləri boyu biabırçı uğursuzluğa alışa-alışa ümidlərini Qərbli Con, Devid əmilərə bağlayıblar.

Bax, Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, C.Həsənli və... bu kimi fərdlərdən siyasi mədəniyyət axtarmaq mümkünsüzdür. Çünki olmayanların siyasi ləyaqət axtarmaları mümkünsüzdür. Çünki siyasi mədəniyyətin formalaşması üçün siyasətçidə siyasi ləyaqətin olması ən başlıca tələbdir. Siyasi ləyaqət anlayışının isə müxalifətdə daimi yer alan bəzi siyasətçilər və siyasət yazarları ilə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Təbii ki, "siyasi mədəniyyət" məfhumu, adətən, ölkələrdə iqtidar-müxalifət münasibətlərinin formalaşmasında sivil davranış qaydalarını özündə əks etdirir.

Bu gün faktdır ki, dağıdıcı müxalifətin bir sıra rəhbərləri xaricdə yerləşən maraqlı qüvvələrin əlində siyasi vasitəyə çevriliblər. Əslində, bunu onların özləri də etiraf edirlər. Daha doğrusu, bir halda ki, müxalifətin rəhbərlərinin dilindən bu faktlar səslənir, deməli, onlar özləri-özlərini açıq şəkildə ifşa edirlər. Yəni onların "siyasi mübarizə"lərinin arxasında qorxulu tendensiyalar gizlənir. Ölkəmizdə keçirilən seçkilərdə bu qüvvələrin tutduqları mövqe və davranışları da bunu deməyə əsas verir. Təbii ki, qeyd etdiyimiz siyasi ləyaqət anlayışı burada açıq formada önə çıxır. O baxımdan ki, ölkəsini, dövlətini, millətini hansısa xarici maraqlı qüvvələrə və onların mənafeyinə satanlar necə siyasi ləyaqətdən və ya siyasi mədəniyyətdən danışa bilərlər? Ölkəsində baş verən siyasi hadisələrə, həmçinin, seçkilərə münasibətdə yalnız xaricdən verilən göstərişlər əsasında yanaşan və özünü "müxalifətçi" adlandıran satqın, mənəviyyatsız Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, C.Həsənli və digər ləyaqətsizlər xalqın gözündə bir tük qədər qiymətlərinin olmadığını dəqiq bilirlər. Ölkəmizdə keçirilən hər bir seçkinin ardından aldığı səslərə nəzər salan müxalifət, dərk edir ki, xalq onlardan birdəfəlik imtina edib. Elə onlar düzəlməsələr yaxşıdır.

# Döyüş əməliyyatlarında iştirak edən əsgər və zabitlərin hüquqları

***Döyüş əməliyyatlarında iştirak edən, hərbi əsir statusu almaq hüququna malik olmayan və dördüncü Cenevrə Konvensiyasına uyğun olaraq, daha əlverişli rəftardan faydalanmayan hər hansı şəxs, bütün hallarda, I Əlavə Protokolun 75-ci maddəsində nəzərdə tutulan himayə hüququna malikdir. İşğal edilmiş ərazidə hər hansı belə şəxs, əgər o casus kimi tutulmamışdırsa, dördüncü Cenevrə Konvensiyasının 5-ci maddəsindən asılı olmayaraq, həmin Konvensiyada nəzərdə tutulan əlaqə hüququna da malikdir.***

2.Casusluq fəaliyyətinin obyektləri və insan haqları casusluq, yəni düşmən haqqında gizli metodlarla məxfi hərbi və siyasi informasiya və ya məlumatın alınması silahlı münaqişə hüququ ilə qadağan olunmur. Tam əminliklə demək olmaz ki, casusluq dinc dövrdə casusluq fəaliyyətinin obyekti olan dövlət suverenliyinin pozulması ilə müşayiət edilmirsə, ümumi beynəlxalq hüquqla qadağan olunmuşdur. İ.İ.Lukaşuk göstərilən sənədlər əsasında casusluğa "münaqişədə olan ölkənin silahlı qüvvələri tərkibindəki şəxsin düşmən tərəfin ərazisində gizli və ya aldatma metodlarının həyata keçirilməklə, hərbi əhəmiyyətli məlumatlar toplaması" kimi tərif verərək, göstərir ki, burada silahlı münaqişə hallarında casusluğun xüsusi halından söhbət gedir. Bu hal casusluğun dövlətlərin cinayət hüququnda istifadə olunan daha geniş anlayışından fərqlidir. Məsələn, Azərbaycan Respublikası CM-in 276-cı maddəsinə əsasən, dövlət sirri olan məlumatların xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə vermə, yaxud vermək məqsədilə oğurlama, toplama və ya saxlama, habelə, xarici ölkələrin xüsusi xidmət orqanlarının tapşırığı ilə Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə etmək üçün sair məlumatları vermə, vermək məqsədilə oğurlama və ya toplama, əgər casusluq əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən törədilərsə, cinayət məsuliyyətinə səbəb olur. Bununla belə, döyüşən tərəflərin beynəlxalq humanitar hüquq normalarına müvafiq surətdə casusluq fəaliyyətinin qarşısını almaq hüququ vardır. Silahlı münaqişənin iştirakçısı kimi casusun hüquqi statusu ilk dəfə 1907-ci il IV Haaqa Konvensiyası Əsasnaməsinin 29-cu maddəsində müəyyənləşdirilmişdir. Orada casus "gizli tərzdə və ya yalançı bəhanə ilə hərəkət edərək, döyüşən tərəflərdən birinin fəaliyyət göstərdiyi rayonda qarşı tərəfə bildirmək niyyəti ilə məlumat toplayan və ya toplamağa cəhd edən şəxs" kimi müəyyənləşdirilmişdir. Kambatantın casus hesab edilməsi üçün iki şərt zəruridir: o, informasiya və məlumat toplayarkən, tutulmalıdır və məlumat toplamaq üçün aldadıcı fəaliyyət göstərməli və ya gizli metodlardan istifadə etməlidir. I Əlavə Protokolun 46-cı maddəsinin 1-ci bəndində casusun hüquqi statusu daha da dəqiqləşdirilmişdir. Orada göstərilir ki, münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinin casusluq edərkən, düşmən tərəfin hakimiyyəti altına düşən hər hansı üzvü hərbi əsir statusu almaq hüququna malik deyildir və onlarla casusla olduğu kimi rəftar edilə bilər. Burada bir neçə vəziyyəti fərqləndirmək lazımdır. I Əlavə Protokolun 46-cı maddəsinin 2-ci və 3-cü bəndlərində 1-ci bənddə müəyyənləşdirilmiş ümumi qayda dəqiqləşdirilir. Belə ki, münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinin üzvü həmin tərəfin adından düşmən tərəfin nəzarəti altında olan ərazidə məlumat topladıqda və ya toplamağa cəhd göstərdikdə, əgər öz silahlı qüvvələrinin forma paltarını geyinmişsə, yəni "gizli tərzdə" və ya "yalançı bəhanə ilə" hərəkət etmirsə, casusluqla məşğul olan şəxs sayılmır. Maddənin 3-cü bəndi, hər şeydən əvvəl, partizanların vəziyyətini tənzimləyir və müqavimət hərəkatı döyüşçülərinə hərbi əsir statusunu qorumağa imkan verir. Belə ki, münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinin düşmən tərəfin işğal etdiyi ərazidə yaşayan üzvü asılı olduğu tərəf adından həmin ərazidə hərbi əhəmiyyətli məlumat topladıqda və ya toplamağa cəhd göstərdikdə, əgər aldatma yolu ilə hərəkət etmirsə və ya bilərəkdən gizli metodlara əl atmırsa, casusluqla məşğul olan şəxs sayılmır. Üstəlik, belə şəxs casusluq edərkən tutulmamışdırsa, o, hərbi əsir statusu almaq hüququnu itirmir və onunla casusla olduğu kimi rəftar edilə bilməz. Lakin əgər müqavimət hərəkatı üzvü qadağan olunmuş metodlardan istifadə edərsə (məsələn, işğalçı qüvvələrin hərbi formasını geyinərsə) və onu maraqlandıran hərbi xarakterli məlumat toplayarkən və ya toplamağa cəhd edərkən tutularsa, onda o, hərbi əsir statusunu itirmiş olur. Belə hallarda, ona I Əlavə Protokolun 45-ci maddəsinin 3-cü bəndi tətbiq olunacaqdır. Yəni o, 75-ci maddəyə əsasən, minimum müdafiədən istifadə edəcəkdir.

Müqavimət hərəkatı döyüşçüsü hərbi əhəmiyyətli məlumat toplamadığı, lakin artıq toplamış olduğu məlumatı radio ilə ötürdüyü vaxt tutulduqda, işğalçı dövlət onunla hərbi əsir kimi davranmalıdır. Belə hallarda, onun həmin məlumatlar aldatma və ya gizli metodlar və ya digər üsullarla əldə etməsi əhəmiyyət kəsb etmir. Casus isə düşmənin yerləşdiyi ərazidə tutulduğu hallarda cəzalandırılır. Lakin o, özünün keçmiş fəaliyyətinə görə cəzalandırıla bilməz: Casusluq hərbi cinayət hesab edilmir və hesab edilə də bilməz. Haaqa Konvensiyasının 30-cu maddəsinə əsasən, casus yerində yaxalandıqda, məhkəmədə mühakimə olunmadan cəzalandırıla bilməz. Konvensiyanın 31-ci maddəsində isə göstərilir ki, öz hərbi hissəsinə qayıtdıqdan sonra düşmənin əlinə keçmiş casus hərbi əsir hesab olunur və özünün əvvəlki fəaliyyətinə görə heç bir cəzaya məruz qala bilməz. Beləliklə, hərbi casus ancaq düşmən ərazisində fəaliyyət göstərdiyi vaxt tutulduğu hallarda cəzalandırılır və özünün əvvəlki fəaliyyətinə görə cəzalandırıla bilməz.

Qeyd etmək lazımdır ki, casuslara münasibətdə cəza tədbirləri də daha ciddidir. Belə ki, IV Cenevrə Konvensiyasının 68-ci maddəsinə əsasən, əgər himayədə olan şəxs yeganə olaraq, işğalçı dövlətə zərər vurmaq niyyəti ilə hüquq pozuntusu törədirsə və əgər bu hüquq pozuntusu işğalçı qoşunların və ya inzibati heyətin üzvlərinin həyatına və ya fiziki toxunulmazlığına qəsd deyildirsə, ciddi kollektiv təhlükə törətmirsə və işğalçı qoşunların və inzibati heyətin əmlakına və ya onların istifadə etdikləri obyektlərə ciddi ziyan vurmursa, həmin şəxs nəzarət altında saxlanılmalı və ya sadəcə, həbs olunmalıdır. Həm də bu cür nəzarət altında saxlama və ya həbsin müddəti törədilmiş əmələ uyğun olmalıdır. İşğalçı dövlətin qəbul etdiyi cinayət cəzası müddəaları himayədə olan şəxslər barəsində ölüm cəzasını yalnız onların casusluqda, habelə, işğalçı dövlətin hərbi obyektlərinə qarşı yönəldilmiş ciddi təxribat əməllərində, yaxud bir və ya bir neçə şəxsin ölümünə səbəb olmuş qəsdlərdə müqəssir olduğu hallarda və işğal edilmiş ərazinin işğaldan əvvəl qüvvədə olmuş qanunvericiliyində bu cür hallara görə ölüm cəzasının nəzərdə tutulmuş olması şərti ilə müəyyən edilə bilər. F.Kalsxoven yuxarıda göstərilən maddədə casuslara münasibətdə ağır cəza tədbirinin müəyyənləşdirilməsini IV Cenevrə Konvensiyasının məhdudiyyətləri nəzərdə tutan 5-ci maddəsi ilə əlaqələndirir. Burada göstərilir ki, münaqişədə iştirak edən hər hansı tərəf Konvensiyanın himayəsində olan hər hansı ayrıca şəxsin onun ərazisində həmin dövlətin təhlükəsizliyi üçün düşmənçilik fəaliyyəti göstərməsindən asılı olaraq, şübhələndikdə və ya bu cür fəaliyyət, həqiqətən, müəyyən edildikdə, həmin şəxs, Konvensiya ilə verilən hüquqların və imtiyazların ona verilməsi həmin dövlətin təhlükəsizliyinə xələl gətirə bilərsə, belə hüquqlara və imtiyazlara iddia edə bilməz. Konvensiyanın himayəsində olan ayrıca şəxs işğal edilmiş ərazidə casus və ya təxribatçı kimi və ya işğalçı dövlətin təhlükəsizliyi üçün qorxu törədən fəaliyyətdə qanuni əsasla şübhələnilən şəxs kimi tutulmuşsa, həmin şəxs zəruri hərbi təhlükəsizlik mülahizələri tələb etdikdə, Konvensiya ilə verilən əlaqə hüquqlarından məhrum edilə bilər. Lakin bu halların hər birində yuxarıda nəzərdə tutulan şəxslərlə humanist rəftar edilməli və mühakimə icraatı zamanı onlar Konvensiya ilə nəzərdə tutulan ədalətli və normal mühakimə hüququndan məhrum olunmamalıdırlar. Dövlətin təhlükəsizliyi imkan verdiyi, ən qısa müddətdə, həmin şəxslərə münasibətdə xüsusi rejim ləğv olunmalıdır.

I Əlavə Protokolun 75-ci maddəsi ümumi və xüsusi mühafizə hüququ olmayan ayrı-ayrı kateqoriya şəxslərin (o cümlədən, casusların) istifadə edə biləcəkləri əsas təminatları nəzərdə tutur. Həmin şəxslərlə hər bir halda humanist rəftar edilir və onlar irqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə və ya etiqadına, siyasi və ya başqa əqidəsinə, milli və ya sosial mənşəyinə, əmlak vəziyyətinə, doğumuna və ya hər hansı başqa statusuna və ya bu kimi digər meyarlara görə hər hansı əlverişsiz fərq qoyulmadan, ən azı, I Əlavə Protokolun 75-ci maddəsinin nəzərdə tutduğu himayə ilə təmin edilirlər. Həmin şəxslərə qarşı istər mülki, istərsə də hərbi orqanların nümayəndələri tərəfindən hər hansı vaxtda və hər hansı bir yerdə bir sıra hərəkətlərin törədilməsi qadağan edilir.

Əlavə Protokolun 75-ci maddəsinin 4-cü bəndi həmin şəxslərə münasibətdə ədalət mühakiməsi həyata keçirilərkən riayət edilməli olan bir sıra "adi ədalət mühakiməsi"nin ümumtanınmış prinsiplərini nəzərdə tutur. Belə ki, müqəssirə təqsirli bilindiyi hüquq pozuntusunun təfsilatı dairəsində dərhal məlumat verilməli və o, həm məhkəmədən əvvəl, həm də məhkəmə zamanı müdafiə üçün zəruri olan bütün hüquq və vasitələr ilə təmin olunmalıdır;

- fərdi cinayət məsuliyyətinə əsaslanmadan, heç bir şəxs hüquq pozuntusuna görə məhkum edilə bilməz;

- heç bir şəxs hər hansı hərəkəti və ya xətanı törədərkən, ona şamil edilən milli qanunvericilik və ya beynəlxalq hüquq normalarına görə cinayət sayılmayan hərəkətə və ya xətaya görə cinayət törətməkdə təqsirləndirilə və ya mühakimə edilə bilməz; eləcə də, verilən cəza həmin cinayətin törədildiyi anda tətbiq edilən cəzadan ağır olmamalıdır; cinayət törədildikdən sonra qanunla daha yüngül cəza təyin olunduqda, bu qanunun qüvvəsi həmin cinayətkara da şamil edilir.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

14 mart

Son səhifə

# Dünyanın ən varlı 20 insanı 1 gündə 78 milyard dollar itirdi



***Nyu-York fond birjasında keçirilən hərrac sessiyasının nəticələrinə əsasən, 1987-ci ilin oktyabr ayından bəri qeydə alınan əsas indekslərin ucuzlaşması səbəbindən dünyanın ən varlı 20 insanı bir sutka ərzində təqribən 78 milyard dollar itirib.***

"Forbes" nəşrinin yazdığına görə, ekspertlərin hesablamalarına görə, ən çox itki aksiyaları 8 faiz ucuzlaşdıqdan sonra demək olar, 8 milyard dollar itirən "Amazon" korporasiyasının rəhbəri Ceff Bezosun payına düşüb. Fransanın LVMH (Louis Vuitton Moet Hennessy) kompaniyasının Baş direktoru Bernar Arnonun varidatı isə sutka ərzində 7,7 milyard dollar azalıb. "Forbes" jurnalının siyahısında, həmçinin 5,7 milyard dollar itirən "Facebook" sosial şəbəkəsinin rəhbəri Mark Sukerberq və kapitalı 5,6 milyard dollar azalan milyarder Larri Ellison da var.

# Avtomobillərdən oğurluq edənlər tutulub



***Qaradağ rayonunda martın 7-də evlərin birindən 5000 manat və 700 ABŞ dolları, habelə məişət əşyaları oğurlamaqda şübhəli bilinən paytaxt sakinləri V.İsmayılov və M.Babayev Bakı Şəhər Baş Polis İdarəsinin və rayon polis idarəsinin 10-cu polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu il fevralın 26-da və martın 3-də Binəqədi rayonunda iki avtomobildən maqnitofon oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Ə.Kazımov rayon polis idarəsinin 5-ci polis bölməsinin əməkdaşları tərəfindən yaxalanıb.

Gəncə şəhərinin Nizami Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində isə martın 7-də və 9-da şəhər sakinlərinə məxsus iki avtomobildən mobil telefon, maqnitofon və səsgücləndiricilər oğurlamaqda şübhəli bilinən əvvəllər məhkum olunmuş M.Sultanov tutulub.

# Koronavirusun bir nömrəli DÜŞMƏNİ açıqlandı!




***ÜST (Ümumdünya Səhiyyə Təşkilatı) əl yumanı koronavirusun yayılmasının qarşısını alan ən təsirli vasitə kimi tanıyır. XəzərXəbər xarici mətbuata istinadən xəbər verir ki, əllərin yuyulması adi nüans kimi görünsə də, ÜST təmiz əllərin koronavirus infeksiyası riskini azaltmağın ən təsirli yollarından biri olduğunu qəbul edib. Təəssüf ki, insanların 95 faizi əllərini səhv yuyur. Ekspertlər açıqlayıb ki, əlləri yumaq əslində bir elmdir!***

Alimlər gigiyena vərdişlərini necə müəyyənləşdirdi?

"Journal of Environmental Health" jurnalında dərc edilən məqalədə göstərilib ki, amerikalı elm adamları ictimai tualetlərdə insanların gigiyenik qaydaları necə həyata keçirdiklərini izləyib. Nəticədə 3749 nəfər qeydə alınıb. Müvafiq məkana gələn hər üç nəfərdən biri əlini yuyarkən sabun istifadəsini zəruri saymayıb, 10 nəfərdən biri isə ümumiyyətlə başını qürurla qaldıraraq çanağın yanından keçib. Qadınlar kişilərə nisbətən daha səliqəli davranıb, 77,9% hallarda sabundan istifadə edib, kişilərin isə yalnız 50,3%-i.

Ümumilikdə ABŞ-da Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzi tərəfindən aparılan onlarla araşdırma da bu nəticəyə gəlib ki, əllərin hərtərəfli yuyulması hətta ən təhlükəli xəstəliklərin yayılmasının qarşısını ala bilər. Və bu yalnız respirator koronavirusu deyil, həm də sətəlcəm və kəskin ishal ilə müşayiət olunan xəstəliklərdir. Odur ki, yalnız əlləri yumaqla gündə minlərlə insanın həyatını xilas edə bilərsiniz.

Əllərin yuyulmasının 5 qızıl qaydası

**1.** Ən azı 20 saniyə əllərinizi yuyun. Unutmayın ki, əllərinizi yuyarkən saniyələr sürətlə getmir, odur ki, ölçülmüş sürətlə hesablamalısınız. Və beləliklə minimum iyirmiyə qədər sayın.

**2.** Yalnız ovcunuzu deyil, həm də hər iki əlinizin də arxa hissəsini yuduğunuza əmin olun.

**3.** Tualetdən istifadə etdikdən, burnunuzu sildikdən, hər öskürəkdən və ya asqırıqdan sonra əllərinizi mütləq yuyun.

**4.** Yeməkdən əvvəl, yemək zamanı və sonra əllərinizi yuyun.

**5.** Xəstə insanlarla danışdıqdan dərhal sonra əllərinizi yuyun. Məsələn, qrip virusu səthdə 5-10 saniyə yaşaya bilir. Bu müddət ərzində əllərinizi yumamısınızsa, virusun daşıyıcısınız və onu başqalarına da yoluxdura bilərsiniz.

Yadda saxlayın ki, antiseptik məhlullar əlləri yumaq qədər təsirli deyil. Onların effektiv olması üçün tərkibi ən az 60% spirt olmalıdır, odur ki, ÜST əl yuma məsələsini mütləq prioritet sayır.

# "Eurovision-2020" ləğv edilməyəcək

May ayında Niderlandda keçirilməsi planlaşdırılan "Eurovision - 2020" mahnı yarışması koronavirus təhlükəsi ilə əlaqədar ləğv edilməyəcək. APA-nın "AD" nəşriyyatına istinadən verdiyi xəbərə görə, bu barədə Rotterdam şəhər hakimiyyəti qərar qəbul edib.

Rotterdam bələdiyyə şurasının turizm üzrə üzvü Said Kasmi hakimiyyətin virusun yayılmasına gündəlik nəzarət etdiyini bildirib. "Hələ ki, yarışma hər hansı əlavə qərarın verilməsini tələb etmir. Hazırlıq işləri davam etdirilir. Düşünürəm ki, aprelin ortasında bu suala bir daha qayıtmaq lazım olacaq, ancaq müsabiqəyə qədər hələ vaxtımız çoxdur", - deyə o əlavə edib.

# Bu ölkədə pullar "karantinə" alındı



***Küveyt Mərkəzi Bankı koronavirusa qarşı tədbirlər çərçivəsində əskinasları "karantinə" alır.***

RİA Novosti-nin məlumatına görə, bu barədə ölkənin Mərkəzi Bankının saytında xəbər verilib. Məlumatda deyilir ki, təkrar dövriyyə zamanı koronavirus təhlükəsinin qarşısının alınması üçün əskinaslar ən azı dörd həftə qapalı və təcrid olunmuş qutularda saxlanılacaq. Küveyt Mərkəzi Bankından həmçinin bildirilib ki, həm bank işçilərinin, həm də ictimaiyyətin təhlükəsizliyini təmin etmək üçün xəzinənin, həmçinin pul sayma, çeşidləmə və qəbul etmə cihazlarının mütəmadi sterilizasiyası həyata keçirilir.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**